**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCAN BÖLGƏLƏRİNDƏ İCTİMAİ-SİYASİ PROSESLƏR (1918-1920-ci illər)

İxtisas: 5503.02 – Vətən tarixi
Elm sahəsi: Tarix
Iddiaçi: **Kamran Novruz oğlu İsmayılov**

elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" şöbəsində yerinə yetirilmişdir

**Elmi məsləhətçi:** AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor **Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor **İradə Səid qızı Bağırova**

tarix elmləri doktoru, professor **İsmayıl Məhərrəm oğlu Musa**

tarix elmləri doktoru, professor **Xaqani Məmməd oğlu Məmmədov**

tarix elmləri doktoru, dosent **Fərhad Rafiq oğlu Cabbarov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
__________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: __________ tarix elmləri doktoru, dosent **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor **Mais İsrail oğlu Əmrahov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın bölgələrinin tarixinin dərindən öyrənilməsi vətən tarixşünaslığının ən mühüm problemlərindən birini təşkil edir. Bölgələrimizin tarixini hərtərəfli şəkildə araşdırmadan, müxtəlif dövrlərdə ayrı-ayrı bölgələrdə cərəyan etmiş hadisə və prosesləri geniş təhlil etmədən Azərbaycanın bütöv tarixini obyektiv öyrənmək mümkün deyildir. Bu baxımdan hər bir bölgənin tarixinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

1918-ci ildə Cümhuriyyətin yaranması Bakı ilə yanaşı ölkənin bütün bölgələrində ciddi ictimai-siyasi dəyişikliklərə səbəb olmuş, geniş xalq kütlələrinin ictimai-siyasi, mədəni fəallığının yüksəlməsinə gətirib çıxarmışdı. Azərbaycan Cümhuriyyətinin (bundan sonra AC – K.İ.) ərazisini təşkil edən qəzaların əhalisi ölkədə gedən milli dövlət quruculuğunda yaxından iştirak etmişdir. Əlbəttə, hər bir bölgədə ictimai-siyasi proseslər fərqli şəkildə cərəyan edirdi, bununla yanaşı bütün bölgələrdə bu proseslərin ümumi qanunauyğunluqları da özünü göstərirdi. Coğrafi-siyasi şəraitindən, sosial-iqtisadi, mədəni-təhsil inkişaf xüsusiyyətlərindən, tarixi ənənələrindən, əhalisinin sosial-milli tərkibindən və digər amillərdən asılı olaraq hər bir bölgənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi həyatı özünəməxsus səciyyə daşıyırdı. Xüsusən, erməni şovinist-milli dairələrinin iddia irəli sürməklə kifayətlənməyərək, silahlı təcavüz həyata keçirdikləri və etnik separatizmi dəstəklədikləri bölgələrimizdə – Naxçıvanda, Qarabağda, Zəngəzurda vəziyyət daha mürəkkəbliliyi ilə fərqlənirdi.

Ona görə də Şimali Azərbaycan bölgələrində təzahür edən proseslərin milli dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi nəzərdən keçirilməsi olduqca mühüm ideoloji faktordur, bu proseslərdə xalqın geniş kütlələrinin iştirakı məsələsinin araşdırılmasının isə böyük siyasi mənası vardır.

1918-1920-ci illərdə bölgələrimizdə cərəyan etmiş siyasi proseslər Şimali Azərbaycanın sərhədləri ilə məhdudlaşmayaraq, bütövlükdə regionun sonrakı vəziyyətində ciddi dəyişikliklərə gətirib

çıxarmışdır. Bu özünü xüsusən Naxçıvan, Qarabağ, Zəngəzur, Zaqatala, Lənkəran bölgələrində baş vermiş hadisələrdə göstərmişdir. Etiraf etmək lazımdır ki, 1918-1920-ci illərdə Cənubi Qafqazda, Azərbaycanda və onun müxtəlif bölgələrində baş vermiş təlatümlü ictimai-siyasi hadisələr arasında adı çəkilən bölgələrdə cərəyan etmiş hadisələr Azərbaycanın gələcək taleyinə təsiri baxımdan diqqəti daha çox cəlb edir. Bu bölgələrin mürəkkəb geosiyasi mövqeyini, həmin bölgələrdə təzahür etmiş hadisələrin spesifikliyini nəzərə alaraq onların təhlilinə dissertasiyada daha geniş yer ayrılmışdır. Araşdırılan dövrdə həmin bölgələrdə baş verən prosesləri əlahiddə, təcrid olunmuş şəkildə təhlil etmək mümkün deyildir. Tarix boyu bu bölgələrimizə ermənilər əsassız ərazi iddiaları irəli sürmüş, əhalisinə qarşı saysız-hesabsız zorakılıqlar və vəhşiliklər törətmişlər. Eyni zamanda bu bölgələrin azərbaycanlı əhalisi də öz torpaqlarını erməni təcavüzündən qorumaq üçün bütün imkanlardan istifadə edərək birgə mübarizə aparmışdır. Ancaq nəzərə almaq lazımdır ki, təbii-iqtisadi, tarixi-etnik, coğrafi-siyasi şərtlərə uyğun olaraq hər bölgədə bu mübarizə fərqli formalarda aparılmış və fərqli nəticələr vermişdir.

Azərbaycanın tarixi ərazilərində, xüsusən hazırda Azərbaycan Respublikasının hüdudlarından kənarda qalmış ərazilərində tarixin müxtəlif dövrlərində cərəyan etmiş mürəkkəb ictimai-siyasi proseslərin, müsəlman-türk əhaliyə qarşı həyata keçirilmiş soyqırımı və zorakılıqların araşdırılması tarixşünaslığın mühüm vəzifələrindən biri olaraq qalmaqdadır. Bu baxımdan 1918-1920-ci illərdə Zəngəzur bölgəsində baş vermiş hadisələrin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Həmin dövrdə dünyada baş verən proseslərdən yararlanmağa çalışan Ermənistanın millətçi-şovinist dairələri Azərbaycanın bu ərazisini ələ keçirmək üçün ciddi cəhdlər göstərmişdilər. Zəngəzur diyarı erməni millətçiliyi üçün əsl ölüm-dirim məsələsinə çevrilmişdi. Geosiyasi baxımdan xüsusi önəm kəsb edən Zəngəzurun türk-müsəlman əhalisindən tamamilə təmizlənməsi yolu ilə ələ keçirilməsi erməni strategiyasının əsas hədəflərindən birini təşkil edirdi. Zəngəzuru ələ keçirməklə ermənilər həm Azərbaycanın bütövlüyünü sarsıtmaq, həm də bütün türk dünyasının təbii-coğrafi birliyinə zərbə vurmaq, türk xalqları arasında quru əlaqələrini

həmişəlik qırmaq məqsədi güdürdülər. Hərbi və iqtisadi vəziyyətinin ağır olmasına baxmayaraq Ararat Respublikasının rəhbərliyi Zəngəzurda etnik vəziyyəti və hərbi şəraiti öz xeyrinə dəyişmək və bölgəni işğal etmək üçün bütün imkanlarını səfərbər etmiş və çox təəssüf ki, buna da nail olmuşdu. Əslində sonralar xalqımızın üzləşdiyi problemlərin, o cümlədən torpaqlarımızın işğalının əsas səbəblərindən biri də 1918-1920-ci illərdə Zəngəzur da daxil olmaqla digər ərazilərimizi qorumaq üçün kifayət qədər qətiyyət göstərməməyimiz olmuşdur.

Adı çəkilən bölgələrlə müqayisədə Naxçıvan diyarının spesifik üstünlükləri (azərbaycanlı əhalinin sayca çoxluq təşkil etməsi, siyasi elitanın mövcudluğu, Türkiyənin hərbi, siyasi dəstəyi, əhalinin siyasi mütəşəkkilliyinin yüksək olması) burada ermənilərin ciddi uğur qazanmalarına mane olmuş, bu bölgə ilə bağlı ermənilərin planlarının iflas olması ilə nəticələnmişdir. Düzdür, 20-ci illərin əvvəllərində bolşeviklərin əli ilə Zəngəzur torpağının Ermənistana peşkəş edilməsindən sonra Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşərək anklav vəziyyətinə salınsa da ermənilərin Naxçıvana yiyələnmək cəhdləri baş tutmamışdı.

Araşdırılan dövrdə AC-nin ərazisini təşkil edən digər qəzalarda da tarixi əhəmiyyətli hadisələr baş vermiş, bölgələrin əhalisi ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin təmin edilməsi uğrunda mübarizədə yaxından iştirak etmiş, milli dövlət strukturlarının və ictimai-siyasi təşkilatların yaradılması, sosial-iqtisadi və mənəvi-mədəni məsələlərin, xüsusən qaçqınlar probleminin həlli sahəsində müəyyən təcrübə toplanmışdı. Əslində bu məsələlər bölgələrdə gedən ictimai-siyasi proses və dəyişikliklərin tərkib hissəsi olduğundan onların ictimai-siyasi məsələlərlə kompleks şəkildə araşdırılması vacib bilinmişdir.

Bütün bu məsələlərin arxiv sənədlərinin və dövri mətbuat materiallarının, eləcə də tarixi ədəbiyyatın, xüsusən son illərdə ölkəmizdə və xaricdə işıq üzü görmüş ədəbiyyatın təhlili və yenidən interpretasiyası əsasında ətraflı təhlili tədqiqatın elmi-nəzəri əhəmiyyətini bir daha təsdiq edir.

Tədqiq edilən problemin tarixşünaslığının inkişafına iki

aspektdən yanaşmaq olar: Azərbaycan Cümhuriyyətinin, bütövlükdə 1917-1920-ci illərin tarixşünaslığı və ayrı-ayrı bölgələrin tarixinin tarixşünaslığı.

Şimali Azərbaycan bölgələrinin 1917-1920-ci illər tarixinə aid ayrı-ayrı məqamlar Sovet dövründə Azərbaycanda inqilabi hərəkata, Sovet hakimiyyəti uğrunda mübarizəyə və Sovet hakimiyyətinin qurulmasına həsr edilmiş əsərlərdə öz əksini tapmışdır. Lakin bu zaman əsas diqqət kəndli hərəkatına yönəldiyindən qəzalarda ictimai-siyasi vəziyyətin təhlilinə demək olar ki, rast gəlinmir. Sovet tarixşünaslığında bütün digər məsələlərə mövcud dövrün hakim ideologiyasının sinfi mübarizə prinsipindən yanaşıldığından onları obyektiv əsas kimi götürmək mümkün deyildir. Digər tərəfdən Sovet tarixşünaslığı bu günün elmi-metodoloji və faktoloji yanaşmaları kontekstində də heç bir tənqidə dözmür. Bu birinci növbədə həmin əsərlərin mənbə bazasının məhdudluğu, faktların kontekstdən çıxarılaraq ideoloji ehkamlara uyğun seçilərək verilməsidir. Sovet tarixşünaslığında bölgələrdə baş vermiş proseslər bir qayda olaraq "Azərbaycanda kəndli hərəkatı", "Sosialist inqilabının qələbəsi", "əksinqilaba və xarici hərbi müdaxiləyə qarşı mübarizə" kimi epitetlərlə səciyyələndirilərək təhrif edilmiş, bolşevik-daşnak qüvvələrinin 1918-ci ilin yazında həyata keçirdikləri soyqırımları isə "qəzalarda Sovet hakimiyyətinin zəfər yürüşü" kimi qələmə verilmişdir. Bu yanaşma 20-50-ci illərin Sovet tarixşünaslığı üçün daha xarakterikdir. Təsadüfi deyildir ki, bu illərdə Azərbaycanın bölgələrinin araşdırılan dövr tarixi ilə bağlı hər hansı ayrıca əsər işıq üzü görməmişdir. Yalnız N.Pçelinin kitabında [1] Azərbaycan qəzalarında torpaq münasibətlərinin vəziyyəti ilə bağlı materiallara rast gəlmək mümkündür. Daha çox ideoloji-siyasi məqsədlərə xidmət etdiyindən və faktiki materialların yoxluğundan 20-50-ci illər Sovet tarixşünaslığının təhlili əsasında bölgələrin ictimai-siyasi vəziyyətinin ümumi mənzərəsini yaratmaq mümkün deyildir.

XX əsrin 50-ci illərindən başlayaraq 80-ci illərin sonuna

[1] Пчелин, Н.Н. Крестьянский вопрос при Мусавате (1918-1920 гг.). Очерки / Н. Пчелин. - Баку, АзНО, - 1931. - 61 с.

qədərki dövrü əhatə edən Azərbaycan Sovet tarixşünaslığında 1917-1920-ci illər tarixi ən çox müraciət edilən mövzu olsa da tarixi proseslərə ideoloji yanaşma, faktoloji məhdudluq ,bu dövr üçün də səciyyəvi olaraq qalırdı. Bunu Z.İbrahimovun, C.Quliyevin, Ə.Sumbatzadənin, İ.Tokarjevskinin, A.Kadişevin və başqa müəlliflərin əsərləri[2] də təsdiq edir.

Bununla yanaşı bu dövrün tarixşünaslığında tədqiq olunan problemlə bağlı müəyyən fərqli cəhətlər də özünü göstərməyə başlayırdı. 50-ci illərin sonlarından başlayaraq Azərbaycan Sovet tarixşünaslığında ayrı-ayrı bölgələrdə sinfi mübarizə, kəndli hərəkatı, bolşeviklərin fəaliyyəti, və s. sovet tarixşünaslığı üçün əhəmiyyət kəsb edən məsələləri işıqlandıran əsərlər nəşr edilmişdir[3]. Adı çəkilən əsərlər arasında M.Rüstəmbəylinin Quba qəzasında, N.Əlizadənin və A.Privolnının Lənkəran qəzasında, Q.Mədətovun Naxçıvanda Sovet hakimiyyətinin qurulmasına həsr edilmiş kitabları[4]

---

[2] İbrahimov, Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi / Z. İbrahimov. - Bakı: Azərnəşr, - 1957. - 585 s.; Гулиев, Дж.Б. Борьба Коммунистической Партии за осуществление ленинской национальной политики в Азербайджане / Дж. Гулиев. - Баку: Азернешр, - 1970. - 706 с.; Токаржевский, Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане / Е. Токаржевский. - Баку: Изд. АН, - 1957. - 332 с.; Кадишев, А. Интервенция и гражданская война в Закавказье / А. Кадишев. - Москва: Военное изд-во, - 1960. - 510 с.

[3] Əliyev, P.M. Qarabağ bolşevikləri Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə / P. Əliyev P. - Bakı: Azərnəşr, - 1963. - 105 s.; Əlizadə, N.İ. Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən / N. Əlizadə. - Bakı: Azərnəşr, - 1963. - 112 s.; Katibli, M.M. Gədəbəy bolşevik təşkilatı tarixindən / Katibli M. - Bakı: Azərnəşr, - 1962, - 118 s. Miralayev, T.S. Gəncə və Qazax qəzaların kəndlilərinin inqilabi hərəkatına bolşeviklərin rəhbərliyi (1917-1920) / Miralayev T.. - Bakı: Azərnəşr, - 1963. - 86 s.; Галустян, А.А. Из истории борьбы трудящихся Гянджинской (Елизаветпольской) губернии Азербайджана за Советскую власть (1917-1920 годы) / А. Галустян. - Баку: Аз.Гос.Изд., - 1963. - 63 с.; Rüstəmbəyli, M. Çarpışan qüvvələr / M. Rüstəmbəyli. - Bakı: Maarif, - 1991. - 188 s.; Мадатов, Г.А. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР / Г. Мадатов. - Баку: АН. Азерб. ССР, - 1968. - 187 с.

[4] Rüstəmbəyli M. Çarpışan qüvvələr; Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi

Sovet tarixşünaslığının ehkamlarına uyğun yazılsa da nisbətən geniş mənbə bazasına malikdirlər. Ancaq bütün bu nəşrlərdə Azərbaycanın qəzalarında real vəziyyət saxtalaşdırılır, Cümhuriyyət hökumətinin bölgələrdə öz suverenliyini bərpa etmək səyləri əks-inqilabçılıq, separatçı qüvvələrin antiazərbaycan fəaliyyəti isə Sovet hakimiyyəti uğrunda mübarizə kimi qələmə verilir. Həmin dövrdə nəşr edilmiş əsərlər sırasında H. Əzimovun əsərlərində [5] 1917-1918-ci illərdə Azərbaycanın qəzalarında ictimai-siyasi prosesləri, o cümlədən yeni hakimiyyət orqanlarının, sovetlərin, kəndli komitələrinin formalaşdırılmasını, siyasi partiya və təşkilatların yaradılmasını özündə əks etdirən materiallar mövcuddur.

XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq vətən tarixinin mürəkkəb hadisələrlə dolu bir çox dövrlərini, xüsusən Sovet tarixşünaslığında daha çox saxtalaşdırılmaya məruz qalmış 1917-1920-ci illər dövrünün, Cümhuriyyət tarixinin dövriyyəyə yeni daxil edilmiş mənbələr əsasında daha dərindən və obyektiv, ideoloji və siyasi konyunkturadan uzaq araşdırılması üçün şərait yarandı. Bu dövr ərzində Azərbaycanda Cümhuriyyətin tarixinə həsr edilmiş kollektiv əsərlərdə, monoqrafik tədqiqatlarda və dissertasiyalarda [6] əsas diqqət 1917-1920-ci illərdə ümumən Azərbaycanda gedən ictimai-siyasi proseslərə, Cümhuriyyətin daxili və xarici siyasətinin öyrənilməsinə yönəldilsə də, bu proseslər fonunda ayrı-ayrı bölgələrdə cərəyan edən hadisələrə də toxunulmuşdur.

Müasir Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq I.

---

tarixindən; Привольный, А.А. Над Муганью зарево Октября / А. Привольный. - Баку: Азернешр, - 1967. - 197 с.

[5] Əzimov, H.S. Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər) / H. Əzimov. - Bakı: Elm, - 1971. - 126 s.; Əzimov, H.S. İnqilab dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə / H. Əzimov. - Bakı: Elm, - 1976. - 37 s.; Азимов, Г.С. Великий Октябрь в Азербайджане / Г. Азимов. - Баку: Азернешр, - 1987. - 324 с.

[6] Azərbaycan Cümhuriyyəti. (1918- 1920) / N.Ə. Ağamalıyeva [və b.]. - Bakı: Elm, - 1998. - 336 s.; Azərbaycan tarixi: 7 cilddə, V cild / M.İsmayılov [və b.]. - Bakı: Elm, - 2001. - 672 s. və b.

Musayevin əsərində [7] Azərbaycanın iki mühüm bölgəsində – Naxçıvanda və Zəngəzurda siyasi vəziyyət, ermənilərin bu bölgələrə iddiaları və hərbi təcavüzü, AC hökumətinin bu ərazilərdə öz suverenliyini qorumaq üçün hərbi, siyasi, diplomatik səyləri, xarici dövlətlərin regiondakı siyasəti Azərbaycan arxivlərinin sənədləri əsasında araşdırılmışdır ki, bu sənədlərin əksəriyyəti dövriyyəyə ilk dəfə olaraq müəllif tərəfindən daxil edilmişdir.

Y.Mahmudovun redaktorluğu altında hazırlanmış Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyasında Azərbaycan qəzaları haqqında məlumatlar toplanmışdır[8].

A.Adıgözəlovanın monoqrafiyasında [9] Cümhuriyyətin yaranması ərəfəsində Azərbaycanın qəzalarında yerli hakimiyyət orqanlarının formalaşdırılması, sovetlərin təşkili, bölgə əhalisinin siyasi fəallığı ilə bağlı məsələlər təhlil edilmişdir.

Ə. Nəzərlinin əsərində qəzalarda məktəb quruculuğu, maarif işinin təşkili, əhalinin savadlandırılması ilə bağlı zəngin məlumatlar öz əksini tapmışdır[10]. İ.Bağırovanın monoqrafiyasında[11] 1917-ci il Fevral inqilabından sonra Azərbaycanda siyasi şərait işıqlandırılmış, bölgələrdə milli hərəkatın yüksəlişi, milli siyasi təşkilatların yaranması öz əksini tapmışdır.

AC-nin tarixinin müasir tarixşünaslığının ən mühüm fərqləndirici cəhətlərindən biri Azərbaycanın ayrı-ayrı bölgələrinin siyasi, iqtisadi və mədəni vəziyyətinin tədqiq olunduğu əsərlərin

---

[7] Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) / İ. Musayev. - Bakı: BDU, - 1998. - 385 s.

[8] Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası: 2 cilddə, I cild / Y. Mahmudov [və b.]. - Bakı: Lider, - 2004. - 439 s.; Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası: 2 cilddə, II cild / Y. Mahmudov [və b.]. - Bakı: Lider, - 2004, - 469 s.

[9] Adıgözəlova A.P. Fevral inqilabından sonra Şimali Azərbaycanda idarəçilik sistemi / A. Adıgözəlova. - Bakı: Elm və təhsil, - 2017. - 200 s.

[10] Назарли, А. Э. Народное образование в Азербайджанской Республике (1918-1920) / А. Назарли. - Баку: Нурлан, - 2008. - 224 с.

[11] Багирова, И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917 / И. Багирова. - Баку: Элм, - 1997. - 257 с.

yazılmasıdır. V.Əliyevanın kitabında [12] Lənkəran bölgəsinin, R.Bayramovanın kitabında [13] isə Quba bölgəsinin tarixi ilə bağlı məsələlər işıqlandırılmışdır. Ş.Rəhmanzadənin monoqrafiyasında [14] Azərbaycanın Zaqatala bölgəsində bölgədə mövcud olmuş siyasi vəziyyət, o cümlədən bölgənin mənsubluğu məsələlərinə Azərbaycan-Gürcüstan münasibətləri kontekstində toxunulmuşdur. H.Məmmədovanın kitabında [15] Cümhuriyyət dövründə Qarabağ bölgəsində siyasi vəziyyət, erməni separatizminə qarşı Azərbaycan hakimiyyətini mübarizəsi məsələləri işıqlandırılmışdır.

Bölgələrdə hərbi-siyasi şəraitin öyrənilməsi baxımından AC-nin hərb tarixinə həsr edilmiş əsərlər, xüsusən M. Süleymanovun tədqiqatları[16] mühüm əhəmiyyət kəsb edir. Bu əsərlərdə Azərbaycan Ordusunun və Qafqaz İslam Ordusunun (QİO) yaradılması və ölkənin ərazi bütövlüyü uğrunda apardıqları döyüş əməliyyatları, bölgə əhalisinin ordu quruculuğunda iştirakı, Azərbaycan Ordusunun erməni təcavüzünə qarşı mübarizəsi ilə bağlı maraqlı materiallar mövcuddur.

---

[12] Əliyeva, V.Ş. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin Lənkəran bölgəsində bərqərar edilməsi / V Əliyeva. - Bakı: Elm, - 2012. - 170 s.

[13] Bayramova, R.Q. Azərbaycanın Quba bölgəsi tarixin dönüş mərhələsində (1917-1920-ci illər) / R.Bayramova. - Bakı: Turxan NPB, -2018. - 236 s.

[14] Rəhmanzadə, Ş.F. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında. 1917-1930-cu illərin əvvəlləri) / Ş. Rəhmanzadə. - Bakı: Aspoliqraf, - 2008. - 376 s.

[15] Məmmədova, H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920) / H. Məmmədova. - Bakı: Nağıl Evi, - 2006. - 150 s.

[16] Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu / Mehmet Rıhtım [və b.]. - Bakı: Qafqaz Araşdırmaları İnstitutu, - 2008. - 505 s.; Süleymanov, M.S. Azərbaycan Ordusu (1918-1920) / M. Süleymanov. - Bakı: Hərbi nəşriyyat, - 1998. - 488 s.; Süleymanov, M.S. Qafqaz İslam Ordusu və Azərbaycan / M. Süleymanov. - Bakı: Hərbi nəşriyyat, - 1999. - 440 s.; Süleymanov, M.S. Nuri paşa / M. Süleymanov. - Bakı: Hərbi nəşriyyat, - 1999. - 143 s.; Yücəər, N. Birinci Dünya Müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatı: Azərbaycan və Dağıstanın öz müstəqilliklərini qazanmaları. 1918 / N. Yücəər. - Bakı: Qafqaz Universiteti, -1999. - 196 s.

C.Həsənlinin əsərlərində[17] AC hökumətinin xarici siyasəti, ölkənin ərazi bütövlüyünün təmin olunması uğrunda diplomatik mübarizəsi, Ermənistanla ərazi mübahisələri və s. məsələlərin öyrənilməsi kontekstində Azərbaycanın Qarabağ, Zəngəzur və Naxçıvan bölgələri ilə bağlı bir sıra məsələlər öz əksini tapmışdır.

Türk müəlliflərinin əsərlərində[18] Osmanlı və M. Kamal hökumətlərinin Qafqaz siyasəti, QİO-nun və Türkiyə Milli Azadlıq Ordusunun Azərbaycanın bölgələrində fəaliyyəti, xüsusən Naxçıvan və Zəngəzur ətrafında gedən proseslərdə Türkiyənin rolu ilə bağlı məsələlərə toxunulur.

Müəllif əsər üzərində işləyərkən bir sıra həm sovet dövrü, həm də müasir erməni müəlliflərin əsərlərinə[19] də müraciət etmiş, onları

---

[17] Həsənli, C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) / C. Həsənli. – Bakı: GARİSMA MMC, - 2009, - 576 s.; Гасанлы, Дж.П. Русская революция и Азербайджан: трудный путь к независимости. 1917-1920 / Дж. Гасанли. - Москва: ФЛИНТА, - 2011. - 672 с.

[18] İbrahim, Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan / İ.E. Atnur. – Naxçıvan: NDU, Qeyrət, - 1999. - 523 s.; Allen, W.E.D. Kafkas Harekatı. 1828-1921 Türk-Kafkas sınırındakı harplerin tarihi / W.E. Allen, P. Muratof. -Ankara: Genelkurmay Basım evi, - 1966, - 525 s.; 1. Dünya Harbinde Türk Harbi Kafkas Cephesi 3. Ordu Harekâtı, C. I-II / - Ankara: Genelkurmay Basımevi, - 1993. - 803 s.; Erdaş, N. Milli müsadile döneminde Kafkas cümhuriyetleri ile ilişkiler (1917-19201)/ Erdaş N. - Ankara: Genelkurmay, - 1994. - 153 s.; Erşan, M. Birinci Dünya Harbinde Osmanlı Devleti'nin Kuzey Kafkasya Siyaseti (1914-1918) / M. Erşan. - Erzurum: Atatürk Üniversitesi, Atatürk İlkeleri ve İnkılap Tarihi Enstitüsü, - 1995.; Kamalyeri, M. Çanakkale ruhu nasıl doğdu ve Azerbaycan savaşı (1917-1918) / M. Kamalyeri. - İstanbul: Baha Matbaası, - 1972. - 178 s.; Kazım Karabekirin kaleminden Doğunun kurtuluşu / Erzurum: Erzurum ticaret ve sanaye odası, - 1990. - 527 s. Kazim Karabekir. İstiklal Herbimiz / K. Karabekir. - İstanbul: Yeni Türkiye Yayın Evi, - 1960. - 660 s.; Rüştü, E.K. Büyük harpte Bakü yollarında 5. Kafkas piyada firkası / E. Rüştü. 93 saylı Askeri mecmuanın tarih kısmı. – 1934, №34.

[19] Агаян, Ц.П. Победа советской власти и возрождение армянского народа / Ц. Агаян. - Москва: Мысль, - 1981. - 223 с.; Асоян, Т.М. Территориальные проблемы Республики Армении и британская политика (1918-1920 гг.) / Т. Асоян. - Москва: РИЦ «Альфа», - 2005. - 245 с.; Галоян, Г.А. Великий Октябрь и борьба трудящихся Армении за победу Советской власти / Г. Галоян. - Ереван: Изд. АН, - 1962.; Зограбян, Э.А. Шарур-Нахичеван в 1918-

tənqidi təhlil etmişdir. Erməni müəlliflərinin 1917-1920-ci illərdə Azərbaycan qəzalarında cərəyan etmiş proseslərə münasibəti ümumən bəllidir: Onlar öz əsərlərində 1918-ci ilə qədər ümumiyyətlə Cənubi Qafqaz regionunda Azərbaycan adlı coğrafi ərazinin mövcud olmadığını, AC-nin tarixi, hüquqi, etnik-milli əsaslara malik olmadığını, süni şəkildə yaradıldığını, onun əhatə etdiyi ərazilərin əksəriyyətini Ermənistana məxsus olduğunu iddia edərək, Ararat Respublikasının 1918-1920-ci illərdə Azərbaycan bölgələrinə təcavüzkar hücumlarına, bu bölgələrdə yaşayan erməni əhalisinin üsyankar separatçı hərəkətlərinə bəraət qazandırır, AC-nin ermənilərə qarşı genosid həyata keçirdiyini sübut etməyə çalışırlar. Bu zaman erməni tarixçiləri Bakı şəhərində və Azərbaycanın qəzalarında dinc müsəlman əhaliyə qarşı törədilmiş kütləvi soyqırımı hərəkətlərini inkar yolunu tutaraq bunu Azərbaycan tarixçilərinin tarixi saxtalaşdırmaq cəhdi kimi qələmə verirlər. Öz məqsədlərinə çatmaq üçün erməni tarixçiləri bir qayda olaraq ya erməni mənbələrinə, ya da ermənilərin mövqeyini müdafiə edən tarixçilərə istinad etməyi üstün tuturlar. Buna baxmayaraq, onların istifadə etdikləri mənbələrin bir çoxunun bizim üçün əlçatmaz olduğunu, bəzi hallarda isə erməni müəlliflərin məlumatlarında həqiqətləri təsdiq edən faktların olduğunu, eyni zamanda həmin əsərlərin elmi-tənqidi təhlilinin zəruriliyini nəzərə alaraq onlara müraciət edilmişdir.

---

1919 гг.: История геноцида нахичеванских армян / Э. Зограбян. -Ереван: Изд. ЕГУ, - 2012. - 376 с.; Петросян, Г.А. Отношения Республики Армения с Россией (1918-1920 гг.) / Г. Петросян. - Ереван: Изд. ЕГУ, - 2012. - 424 с.; Симонян, Г.С. Из истории «политического оправдания» полководца Андраника / Г. Симонян. - Ереван: ЕГУ, - 2016. - 96 с.; Hovannisian, R.G. The Armenian People from Ancient to Modern Times / R. Hovannisian, - Palgrave Macmillan: 1997. -Vol.I. p. 372; Hovannisian R.G. The Republic of Armenia. Volum I, The First Year, 1918-1919 / R. Hovannisian. - Los Angeles, London: University of California Press, - 1971. - 592 p.; Hovannisian R.G. The Republic of Armenia, Vol. II: From Versailles to London. 1919–1920 / R. Hovannisian. - Berkeley, Los Angeles, London: University of California Press, - 1982. - 603 p.; Гарегин, Нжде. Короткая биография и летопись жизни, http://nashasreda.ru/garegin-nzhde/

Rusiyada nəşr edilmiş bir sıra əsərlərdə[20] 1918-1920-ci illərdə Azərbaycanda mövcud olmuş vəziyyət təhlil olunmuşdur. Lakin bu əsərlərdə regionda baş vermiş hadisələr bir qayda olaraq ya təhrif olunmuş şəkildə təqdim olunmuş, ya da faktlar kontekstdən çıxarılmışdır. Əslində müasir Rusiya tarixşünaslığında AC-nin tarixinə münasibətdə mövcud olan yanaşma, bəzi istisnalarla, bütövlükdə hələ XX əsrin 20-ci illərində istər Sovet tarixşünaslığında, istərsə də rus emiqrant memuaristikasında və tarixşünaslığında kök salmış, Azərbaycanın milli dövlətçiliyini və milli hərəkatını inkar edən, Cümhuriyyətin süni dövlət olduğunu və "türk süngüsü"nün köməyi ilə yaradıldığını, sonra isə ingilislərin diktəsi altında fəaliyyət göstərdiyini, qeyri-müsəlmanlara qarşı ayrı-seçkilik siyasətinin aparıldığını, antirusiya mövqedə durduğunu iddia edən konsepsiyadan uzağa gedə bilməmişdir. Bu konsepsiyanın ən bariz nümunəsini biz həm sovet dövründə, həm də son illərdə yazılmış əsərlərdə, həm də A.Denikin, B.Baykov, B. Stankeviç kimi mühacir müəlliflərin memuar əsərlərində [21] görürük. M. Volxonckinin və V.Muxanovun 2004-cü ildə nəşr edilmiş kitabında[22] Cümhuriyyət tarixinə müasir Rusiya tarixşünaslığı üçün ənənəvi

---

[20] Масловский, Е.В. Мировая война на Кавказском фронте. 1914-1917 г: стратегический очерк / Е. Масловский. - Москва: Вече, - 2015. - 544с.; Морозова, О.М. Муганский регион в 1918-1920 гг.. // - Москва: Русская Старина, - 2015. №. 13, - с.46-58.; Муханов, В.М. Кавказ в революционную пору...: К истории Закавказья в 1917 - первой половине 1918 г. / В. Муханов. - Москва: REGNUM, -2017. - 80 с.; Волхонский, М. По следам Азербайджанской Демократической Республики / М. Волхонский, В. Муханов. - Москва: Европа, - 2007. - 256 с.; Ермоленко, Т. Ф. Погоны и будёновки: Гражданская война глазами белых офицеров и красноармейцев / Т. Ермоленко, О. Морозова. - Москва: Российский гуманитарный научный фонд, - 2013. - 356 с.

[21] Деникин А. Очерки русской смуты. Париж: 1921, http://militera.lib.ru/memo/russian/deniki_ai2/index.html; Байков Б. Воспоминания о революции в Закавказье// Архив русской революции, Т.9. Берлин, 1923; Станкевич, В.Б. Судьба народов России / В. Станкевич. - Берлин: Изд. П.Ладыжникова, - 1921. - 374 с.

[22] Волхонский Москва, Муханов В. По следам Азербайджанской Демократической Республики. Москва: Европа, 2007, 256 с.

yanaşma bariz şəkildə özünü göstərir.

Beləliklə, problemə dair mövcud elmi ədəbiyyatın icmalı aşağıdakıları söyləməyə əsas verir: araşdırılan xronoloji çərçivədə Şimali Azərbaycan bölgələrinin tarixinin tarixşünaslığı müstəqillik illərində böyük inkişaf yolu keçmiş, tədqiqatların obyekti şaxələnərək Cümhuriyyətin ümumi tarixinin öyrənilməsindən konkret problemlərin, o cümlədən ayrı-ayrı bölgələrin tarixinin öyrənilməsinə keçid baş vermişdir. Ötən müddət ərzində 1918-1920-ci illərdə Azərbaycanın müxtəlif bölgələrinin vəziyyətini araşdıran bir sıra tədqiqatlar ortaya qoyulmuşdur ki, onların arasında bu dissertasiya müəllifinin də tədqiqatları vardır. Eyni zamanda AC-nin daxili və xarici siyasəti, iqtisadi və mədəni həyatı, regional geosiyasi proseslər, türk-müsəlman əhalisinin soyqırımları və s. məsələlərin öyrənilməsinə həsr edilmiş əsərlərdə bölgələrin siyasi, iqtisadi vəziyyəti, mədəni-maarif işinin inkişafı, milli münasibətlər və s. aspektlərlə bağlı məsələlərə də geniş yer verilir.

Problemin tədqiqi zamanı geniş mənbə bazasından istifadə edilmişdir. Bu mənbələr sırasında birinci növbədə arxiv materiallarını qeyd etmək lazımdır. Azərbaycanın bölgələrinin tarixinin araşdırılması prosesində ARDA-nin müxtəlif fondlarında saxlanılan sənədlər öyrənilmiş, dövriyyəyə daxil edilmişdir. Problemə dair maraqlı materiallar həmçinin ARPİİSSA fondlarında da üzə çıxarılaraq istifadə edilmişdir.

Problemə dair mənbələrin mühüm qrupunu müxtəlif illərdə nəşr edilmiş sənədlər və materiallar toplusu təşkil edir. Problemi araşdırarkən həm Sovet dövründə, həm də müstəqillik dövründə nəşr edilmiş toplulara[23] müraciət edilmişdir. Müəllif dissertasiya üzərində

---

[23] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenorqafik hesabatlar). I cild / - Bakı: Azərbaycan, - 1998. - 976 s.; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenorqafik hesabatlar). II cild / - Bakı: Azərbaycan, 1998, 992 s.; Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları / Y. Mahmudov [və b.]. - Bakı: ATİB, - 2016. - 407 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu. 3 cilddə, II cild, 1-ci kitab, Gəncə quberniyasında soyqırımı. 1918-1920-ci illər / - Bakı: Çaşıoğlu, - 2011. - 460 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu (üç cilddə), II

işləyərkən erməni müəlliflər tərəfindən nəşr edilmiş toplulara da müraciət etmişdir[24].

Dövri mətbuat orqanlarının materialları da Azərbaycan bölgələrində baş vermiş ictimai-siyasi, hərbi hadisələr, qəzaların iqtisadi, mədəni həyatı haqqında çox müfəssəl məlumat mənbəyidir.

**Tədqiqatın obyekti və predmeti.** 1918-1920-ci illərdə Şimal Azərbaycanda ümumi inkişaf prosesləri kontekstində bölgələrin ictimai-siyasi həyatı tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmetinə qeyd olunan dövrdə müxtəlif bölgələrdə cərəyan etmiş

---

cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. 1917-1920-ci illər / - Bakı: Çaşıoğlu, - 2011. – 256 s.; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi: Sənədlər və materiallar. 1917-1920-ci illər / - Bakı: Elm, - 1960. - s.363.; Азербайджанская Демократическая Республика (1918-1920): Армия. Документы и материалы / - Баку: Азербайджан, - 1998. - 440 с.; Азербайджанская Демократическая Республика: Архивные документы Великобритании / Составитель Н.Максвелл. - Баку: Şərq-Qərb, - 2011. - 711 с.; Азербайджанская Демократическая Республика: Внешняя политика (Документы и материалы) / - Баку: Азербайджан, - 1998. - 632 с.; Азербайджанская Республика: Документы и материалы. 1918-1920 гг. / - Баку: Элм, -1998. - 616 с.; Азербайджанская Демократическая Республика (1918-1920 гг.): Законодательные акты (Сборник документов) / - Баку: Азербайджан, - 1998. - 560 с.; Большевики в борьбе за победу Советской власти в Азербайджане: Документы и материалы. (1917-1918) / - Баку: Аз.Гос.Изд., - 1957. - 700 с.; Борьба за победу советской власти в Азербайджане. 1918-1920: Документы и материалы / - Баку: Изд. АН, - 1967. - 569 с.; История Азербайджана по документам и публикациям / - Баку: Элм, - 1990. - 384 с.

[24]Вестник архивов Армении, 1993, №1-2; Геноцид армян. Ответственность Турции и обязательства мирового сообщества, том 2, часть 1. / Составитель, ответственный редактор, автор предисловия и комментария Ю.Г.Барсегов. - Москва: - 2005; Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов // Под ред. В.А.Микаеляна. - Ереван: Академия наук Армении, - 1992. - 756 с.; Нагорный Карабах в международном праве и мировой политике: Документы и комментария. Т.1 / Составитель Ю.Барсегов. - Москва: КРУГЪ, - 2008. - 944 с.; Погромы армян в Бакинской и Елизаветпольской губерниях в 1918-1920 гг. Сборник документов и материалов / - Ереван: - 2003 ; Республика Армения в 1918-1920 гг. (политическая история): Сборник документов и материалов / - Ереван: Гитутюн, - 2000. – 425 с.

siyasi, sosial-iqtisadi və mədəni proseslərin özəllikləri, bölgələrin milli dövlət quruculuğuna cəlb edilməsi xüsusiyyətləri, Ermənistanın təcavüzü şəraitində ərazi bütövlüyünün təmin edilməsi məsələləri daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** 1918-1920-ci illərdə Azərbaycan bölgələrində cərəyan etmiş ictimai-siyasi proseslərin araşdırılması sahəsində son dövrlərdə mühüm addımlar atılsa da, mövcud tarixşünaslıq materialları göstərilən dövrdə bölgələrin ictimai-siyasi, iqtisadi, mədəni həyatının dolğun mənzərəsini yaratmağa imkan vermir. Bunu nəzərə alaraq Azərbaycanın bölgələrində ("Azərbaycan bölgələri" termini dedikdə biz tarixi Azərbaycanın bütün bölgələrini deyil, Şimali Azərbaycan ərazisinin Azərbaycan Cümhuriyyətinə daxil olan hissələrini nəzərdə tuturuq – K.İ.) cərəyan etmiş ictimai-siyasi, iqtisadi və mədəni proseslərin təhlili tədqiqatın əsas məqsədi kimi müəyyənləşdirmisdir. Bu məqsədlə aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- 1917-ci il Fevral inqilabından sonra Azərbaycan qəzalarında baş vermiş siyasi, inzibati dəyişikliklərin dəyərləndirilməsi;
- Cənub Qafqaz dövlətçiliyi dövründə Azərbaycan bölgələrində siyasi vəziyyətin təhlili;
- Cümhuriyyətin yaranmasından sonra Azərbaycan qəzalarında milli dövlət quruculuğu prosesinin izlənilməsi;
- QİO-nun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsində bölgələrin əhalisinin iştirakının nəzərdən keçirilməsi;
- Cümhuriyyət hökumətinin həyata keçirdiyi islahatlar və dəyişikliklər kontekstində bölgələrdə ictimai-siyasi vəziyyətin təhlili;
- 1919-cu il və 1920-ci ilin əvvəllərində Ermənistanın təcavüzünə məruz qalmış və erməni separatizminin genişləndiyi bölgələrdə hərbi-siyasi vəziyyətin araşdırılması;
- qeyd edilən dövrdə Azərbaycanın digər qəzalarında sosial-iqtisadi vəziyyətin, aqrar münasibətlərin, "qaçqınlar" məsələsinin öyrənilməsi;
- bölgələrdə maarifin, mədəniyyətin inkişaf problemlərinin nəzərdən keçirilməsi;
- araşdırılan dövrdə Azərbaycanın bölgələrində cərəyan etmiş

proseslərin qanunauyğunluqlarının və əsas inkişaf xüsusiyyətlərinin, fərqli və ümumi cəhətlərinin üzə çıxarılması;

- bölgələrdə baş vermiş proseslərin Azərbaycanın ümumi vəziyyətinə və gələcək taleyinə təsirinin müəyyənləşdirilməsi.

**Tədqiqatın metodları**. Tədqiqat prosesində tarix elmində qəbul olunmuş müqayisəli və tarixi analiz, struktur-funksional, kompleksliliк, sistem metodlarından istifadə edilmiş, obyektivlik, tarixilik, faktlara istinad və onların müqayisəli təhlili, hadisələrin öyrənilməsi zamanı konkret tarixi şəraitin, yerli və ümumi xüsusiyyətlərin nəzərə alınması prinsiplərinə əməl edilmişdir.

Tədqiqat aparılarkən geniş sənədlər bazasına müraciət edilmiş, bu zaman analiz və sintez metodlarından istifadə edilmiş, sənədlərdəki faktlara və məlumatlara aid olduğu zaman kontekstində səciyyələndirilmişdir. Arxiv sənədləri təhlil edilərkən müqayisəli–tarixi analiz metodundan istifadə edilmiş, oradakı faktlar və məlumatlar müqayisəli şəkildə təhlil edilmiş, müxtəlif mənbələrin materialları qarşılıqlı tutuşdurulmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. 1. 1918-1920-ci illərdə Azərbaycanın bölgələrində ictimai-siyasi proseslər fərqli şəkildə cərəyan etsə də bu proseslərin ümumi qanunauyğunluqları da özünü göstərirdi. Bölgələr arasında etnik-tarixi ənənələrdən, təsərrüfat həyatının müxtəlifliyindən, əhalinin təhsil və mədəni səviyyəsindən qaynaqlanan fərqlər və rəngarənglik hər bir bölgədə bu proseslərin axarına öz təsirini göstərirdi;

2. Bölgələrdə cərəyan etmiş siyasi proseslər Şimali Azərbaycanla məhdudlaşmayaraq, bütövlükdə regionun sonrakı vəziyyətində ciddi dəyişikliklərə gətirib çıxarmışdır. Bu özünü xüsusən Naxçıvan, Qarabağ, Zəngəzur, Zaqatala, Lənkəran bölgələrində baş vermiş hadisələrdə göstərmişdir;

3. Fevral inqilabından Cümhuriyyətin yaradılmasına qədərki dövrdə bölgələrdə azərbaycanlı əhalinin ictimai-siyasi fəallığının və mütəşəkkilliyinin artması, sosial hərəkatların genişlənməsi tamamilə yeni siyasi şəraitin təşəkkül tapdığını göstərirdi;

4. Həmin dövrdə bolşevik-daşnak qüvvələrinin Bakı quberniyası, erməni şovinist-millətçi dairələrinin İrəvan və Gəncə

quberniyası ərazilərində dinc türk-müsəlman əhalini soyqırımına məruz qoymaları bölgələrdə vəziyyətin mürəkkəbləşməsinə təsir göstərən əsas amil olmuşdu. Belə şəraitdə azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsi milli siyasi qüvvələrin əsas vəzifəsinə çevrilmişdi;

5. Cümhuriyyətin yaranmasından sonra Azərbaycan bölgələrində ictimai-siyasi vəziyyət müxtəlif şəraitdə inkişaf edirdi, idarəçilikdə vahid meyarlar mövcud deyildi;

6. Ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə bölgələrin əhalisi mühüm rol oynamış, bu mübarizədə QİO-nun tərkib hissəsinə çevrilmiş Azərbaycan Ordusunun hissələri və müxtəlif bölgələrin əhalisindən təşkil olunmuş könüllü dəstələr yaxından iştirak etmişlər;

7. Birinci Dünya müharibəsinin başa çatması nəticəsində yaranmış yeni geosiyasi vəziyyət Azərbaycana və onun bölgələrinə təsirsiz ötüşmədi. Antantanın regiondakı hərbi komandanlığının qeyri-müəyyən münasibəti ucbatından Azərbaycan hökumətinin Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrindəki mürəkkəb həbi-siyasi vəziyyəti dinc yolla nizam salmaq cəhdləri uğursuz alındı;

8. Adı çəkilən bölgələrdə hərbi-siyasi vəziyyət həm bütövlükdə Azərbaycanda siyasi vəziyyətə, milli dövlət quruculuğu prosesinə, həm də Cənubi Qafqazda yeni yaranmaqda olan dövlətlərarası münasibətlərə mənfi təsir göstərən ən ciddi amil idi;

9. Çox təəssüf ki, bu dövrdə Azərbaycan hökumətinin həyata keçirdiyi hərbi və diplomatik xarakterli tədbirlər ermənilərin Zəngəzuru işğal etmək cəhdlərinin qarşısını ala bilmədi. Bu isə sonda Qarabağda vəziyyətin yenidən gərginləşməsi, Qərbi Zəngəzurun işğalı, bölgənin müsəlman əhalisinin kütləvi qırğını və deportasiyası, Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsi ilə nəticələndi, ermənilərin gələcəkdə Qarabağın dağlıq ərazisini işğal etmələri üçün əlverişli coğrafi şərait yarandı;

10. Proseslərin bu yöndə inkişafına həmin dövrdə müxtəlif beynəlxalq güclərin regionla bağlı yeritdikləri siyasət də öz təsirini göstərirdi;

11. 1919-cu ili və 1920-ci ilin əvvəllərini Azərbaycanda milli

dövlət quruculuğu prosesinin əsas mərhələsi kimi səciyyələndirmək olar. Bu dövrdə mərkəz Bakı ilə yanaşı bölgələrdə də siyasi sabitliyin təmin edilməsi, hakimiyyət strukturlarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdı;

12. Araşdırılan dövrdə bölgələrin ictimai-siyasi həyatında müəyyən müsbət dəyişikliklər baş versə də sosial-iqtisadi sahədə vəziyyət mürəkkəb olaraq qalırdı. Xüsusən əhalinin mütləq əksəriyyətini təşkil edən kəndlilərin vəziyyəti getdikcə ağırlaşır, bu da onların hakimiyyətdən narazılığını artırırdı. Azərbaycan hökumətinin aqrar siyasətinin qeyri-müəyyənliyi, torpaq islahatının həyata keçirilməsində ləngliyi, yerlərdə özünü göstərən hərc-mərclik halları bölgələrdə sosial-siyasi münasibətləri xeyli gərginləşdirirdi;

13. Cümhuriyyətin mövcudluğu illərində Azərbaycanın üzləşdiyi digər ciddi məsələlərdən biri də qaçqınlar məsələsi oldu. Qaçqınların əksəriyyəti Azərbaycanın qəzalarında yerləşdiyindən qaçqınlıq problemi həm də bölgələrin və onların əhalisinin ən kəskin sosial problemlərindən birini təşkil edirdi;

14. Azərbaycan dövlətinin mədəni-maarif sahəsində atdığı addımlar - təhsilin milliləşdirilməsi, mədəni-maarif müəssisələrinin yaradılması, mədəni tədbirlərin keçirilməsi, qızların və qadınların təhsilə, mədəni-ictimai həyata cəlb edilməsi sayəsində bölgələrdə milli təhsil və mədəniyyət sisteminin əsası qoyulmuş, bölgə əhalisinin mədəni səviyyəsini artırılmasına şərait yaranmışdı;

15. Bütövlükdə Cümhuriyyət dövründə bölgələrdə həyata keçirilmiş tədbirlər müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiyada 1918-1920-ci illərdə Azərbaycan bölgələrində ictimai-siyasi proseslər kompleks şəkildə araşdırılmışdır;

- araşdırmalar zamanı hər bir bölgənin vəziyyətində ümumi və fərqi cəhətlər üzə çıxarılmışdır;

- Cənubi Qafqaz regionu və Azərbaycan miqyasında baş vermiş hadisələrin bölgələrin siyasi vəziyyətinə təsiri öyrənilmişdir;

- eyni zamanda bölgələrdəki proseslərin ölkədə və regionda

geosiyasi vəziyyətə qarşılıqlı təsiri də müəyyən edilmişdir;

- tədqiqat zamanı tarixşünaslıqda indiyə qədər öyrənilməmiş bir çox məsələlər, o cümlədən Cümhuriyyət dövründə bölgələrin ümumi vəziyyəti, müxtəlif bölgələrdə geniş xalq kütlələrinin siyasi və sosial fəallığının artması, milli dövlət quruculuğunda, ölkənin ərazi bütövlüyü uğrunda mübarizədə iştirakı, qəzalarda sosial münasibətlər, mədəniyyətin və maarifin inkişafı məsələləri araşdırılmışdır;

- təqdim olunan dissertasiyada erməni tarixşünaslığının daim qabartmağa çalışdığı Azərbaycan bölgələrində erməni əhalisinin guya soyqırımına və deportasiyaya məruz qalmaları haqqında iddialar və "erməni qaçqınları" məsələsi obyektiv faktlarla elmi şəkildə ifşa edilmişdir. Bu zaman təkcə Azərbaycan arxivlərində saxlanılan sənədlərə deyil, həm erməni qaynaqlarına və erməni müəlliflərin xatirələrinə və əsərlərinə, həm də xarici müəlliflərin arqumentlərinə istinad edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın müddəaları və nəticələri problemin gələcəkdə daha dərindən araşdırılması üçün əsas yaradır. Dissertasiya AC-nin tarixi ilə bağlı tədqiqatların konkret istiqamətlərinin müəyyənləşdirilməsi baxımından müəyyən əhəmiyyət daşıyır. İşin yekunları, irəli sürülmüş təklif və mülahizələr Azərbaycanın ayrı-ayrı bölgələrinin tədqiqinin milli tarixşünaslığın əsas vəzifələrindən biri olduğunu təsdiq edir. Bu baxımdan dissertasiya bölgələrimizin tarixini daha dərindən öyrənməyə öz töhfəsini verəcəkdir.

Tədqiqatın nəticələrindən Ermənistanın və bir sıra digər ölkələrin rəsmi tarixşünaslığının, ideoloji mərkəzlərinin Azərbaycanın siyasi və etnik, dövlətçilik tarixi, siyasi coğrafiyası, o cümlədən AC-nin daxili və xarici siyasəti ilə bağlı hələ də davam edən yalan və iftiralarının ifşa edilməsində mühüm rol oynaya bilər. Tədqiqat işi Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, gənc nəslə xalqımızın tarixinin öyrədilməsində, milli dövlətçilik və demokratiya təcrübəsinin aşılanmasında vasitə kimi istifadə oluna bilər. Dissertasiya işi həmçinin elmi məqalələrin, dərslik və dərs vəsaitlərinin, dissertasiya və buraxılış işlərinin

hazırlanmasında gərəkli ola bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas məzmunu və elmi nəticələri müəllifin beş monoqrafiyasında, nqfuzlu elmi jurnallarda nəşr edilmiş altmışdan artıq məqaləsində və Azərbaycanın ümumi tarixinə və ayrı-ayrı bölgələrinə həsr edilmiş ondan artıq kollektiv əsərdə öz əksini tapmışdır. Dissertasiyanın müddəaları ilə müəllif bir sıra beynəlxalq və ölkə miqyaslı konfranslarda, KİV-lərdə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" şöbəsi.

**Dissertasiyanın ümumi həcmi** 464678 işarədən, o cümlədən "Giriş" hissəsi 35386, I fəsil 74829, II fəsil 81884, III fəsil 174836, IV fəsil 87337, "Nəticə" hissəsi 19406 işarədən ibarətdir

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın "Cümhuriyyətin yaranması ərəfəsində Azərbaycanın bölgələrində ictimai-siyasi vəziyyət"** adlanan **I fəsli** iki paraqrafdan ibarətdir və 1917-ci ilin fevralından 1918-ci ilin mayına qədərki dövrdə regionlarda cərəyan etmiş prosesləri əhatə edir. "**Fevral inqilabından sonra bölgələrdə siyasi və inzibati dəyişikliklər"** adlı **1-ci paraqrafda** 1917-ci ilin fevral-oktyabr ayları ərzində Rusiyada və Cənubi Qafqazda baş verən hadisə və proseslərin Azərbaycana və onun bölgələrinə təsiri araşdırılır. 1917-ci ilin Fevral inqilabı imperiyanın bütün ərazisində olduğu kimi Azərbaycanda da köklü ictimai-siyasi dəyişikliklərə gətirib çıxardı. İnqilabdan sonra bölgələrdə köhnə hakimiyyət strukturlarının ləğvi, yeni icraiyyə və özünü idarə orqanlarının yaradılması prosesi ayrı-ayrı bölgələrin timsalında işıqlandırılır. Bölgələrdə müsəlman əhalinin mütəşəkkilliyinin artmasında Bakı Müsəlman Milli Şurasının və onun Müvəqqəti İcraiyyə Komitəsinin mühüm rol oynadığı qeyd olunur. Fevral inqilabından dərhal sonra, Şimali Azərbaycanın əksər qəza mərkəzlərində, o cümlədən Şəkidə, Lənkəranda, Qubada, Şuşada, Naxçıvanda müsəlman milli şuraları

yaradılmış və onlar milli-siyasi təşkilatların yerlərdə zəif olduqları şəraitdə qısa müddətdə azərbaycanlı əhalinin əsas aparıcı qüvvəsinə çevrilmişdilər.

Azərbaycanın bölgələrində inqilabi dəyişikliklərin ən mühüm təzahürlərindən biri də siyasi partiya və təşkilatların yaranması və geniş fəaliyyətə başlamaları oldu. Müsəlman əhalinin siyasi fəallığı baxımından Gəncə şəhəri xüsusi fərqlənirdi. Fevral inqilabından sonra Azərbaycan bölgələrinin də baş vermiş mühüm dəyişikliklərdən biri qəzalarda azərbaycanlıların müxtəlif ictimai-mədəni təşkilatlarının yaradılması oldu. Azərbaycan əhalisinin ictimai-siyasi fəallığının artmasına Qafqaz Müsəlmanları qurultayı mühüm təsir göstərdi. Həmin dövrdə bir çox qəzalarda siyasi partiyaların şöbələri, eləcə də müxtəlif ictimai təşkilatlar fəaliyyətlə başlamışdılar. Lakin buna baxmayaraq bəzi qəzalarda azərbaycanlıların təşkilatlanması prosesi çox ləng gedirdi. Bu xüsusən erməni təşkilatlarının fəal olduğu Zəngəzur, Cavanşir, Şuşa qəzalarında daha çox özünü göstərirdi. Şuşa şəhərində müsəlmanların milli komitəsinin olmaması daha çox məyusluq doğururdu. Yalnız avqustun 13-də Şuşada yerli ziyalıların təşəbbüsü ilə müsəlman milli komitəsi yaradılmış, L.Behbudov onun sədri seçilmişdi.

İnqilabdan sonra Azərbaycanda siyasi proseslərin fərqləndirici xüsusiyyətlərindən biri də qəzalarda sosial və milli tərkibinə, siyasi məqsədlərinə və fəaliyyət məramlarına görə fərqlənən gənclər təşkilatlarının yaranması oldu. Azərbaycanda gənclər təşkilatlarının yaranmasında 1917-ci ilin martında yaradılmış "İttifaqi mütəlliman" təşkilatının mühüm rolu olmuşdur[25].

Azərbaycanın bölgələrində ictimai həyatda baş vermiş ən mühüm hadisələrdən biri Azərbaycan qadınlarının ilk dəfə olaraq ictimai fəaliyyətə cəlb olunması oldu. Qəzalarda yaranmış ilk qadın xeyriyyə təşkilatı Yelizavetpol şəhəri qadın xeyriyyə cəmiyyəti oldu.

---

[25] İsmayılov K. Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi, mədəni həyatında gənclərin iştirakı // AMEA Tarix İnstitutunun elmi əsərləri, 2008, 25-ci cild, s. 78-87

**I fəslin “1917-ci ilin sonu - 1918-ci ilin əvvəlində Azərbaycanın regionlarında sosial-siyasi vəziyyət” adlanan 2-ci paraqrafında b**olşeviklərin 1917-ci il Oktyabr çevrilişindən Cümhuriyyətin yaranmasına qədərki dövrdə bölgələrdə cərəyan etmiş proseslər təhlil edilmişdir. Oktyabr hadisələrindən sonra Azərbaycanda faktiki olaraq ikihakimiyyətlilik yaranmışdı. Bakı şəhəri və qəzanın bəzi məntəqələrində hakimiyyət sovetlərin əlinə keçsə də, eyni adlı quberniyanın digər ərazilərində və Azərbaycanın əksər bölgələrində formal olaraq Zaqafqaziya Komissarlığının nümayəndəlik orqanları fəaliyyət göstərirdi, lakin faktiki olaraq milli şuralar və komitələr hakimiyyət orqanları funksiyalarını həyata keçirirdilər. Oktyabr çevrilişi Azərbaycan bölgələrində ciddi inzibati dəyişikliklərə səbəb olmadı. Bunun əsas səbəbi yerlərdə hakimiyyətin faktiki olaraq bolşevik çevrilişini tanımaqdan imtina etmiş milli siyasi qüvvələrin əlində olması idi. Bolşevik çevrilişindən sonra Azərbaycanın siyasi qüvvələrinin irəli sürdükləri Azərbaycanın milli-ərazi muxtariyyəti ideyası bölgələrdə özünə daha artıq tərəfdar tapmağa başlayırdı. Bunu 1917-ci ilin 26 noyabrında Rusiya Müəssislər Məclisinə keçirilən seçkilərin nəticələri də sübut edirdi. Həmin nəticələrə görə bütün Cənubi Qafqaz üzrə Müsavat partiyası və müstəqil demokratik qrup seçicilərin 25.1 % səsini toplamışdı[26] ki, bu da bütövlükdə Azərbaycan siyasi qüvvələrinin topladıqları səslərin əksəriyyətini (66,5%) təşkil edirdi. Bunu konkret quberniyalar və qəzalar üzrə səsvermənin nəticələri də sübut edir[27].

Oktyabr hadisələrindən sonra Cənubi Qafqazda baş verən proseslər Azərbaycanın qəzalarında milli münasibətlərin gərginləşməsinə gətirib çıxardı. Yerlərdə qeyri-müsəlman əhalinin sürətlə silahlanması, mütəşəkkil silahlı dəstələrin yaranması azərbaycanlı əhalinin haqlı narahatlığına səbəb olurdu. Qarnizonların və qoşun hissələrinin yerləşdiyi ərazilərdə zabit və əsgərlər tərəfindən silah-sursatın ruslara və ermənilərə satılması və hətta

---

[26] Закавказский Сейм. Стенографический отчёт. Сессия первая. Заседание восемнадцатое. Тифлис: 19 февраля 1918 года, с.5

[27] Беленкий С., Манвелов А. Революция 1917 года в Азербайджане (хроника событий). Баку: АзГиз, 1927, 256 с., с.237

paylanması kütləvi şəkil almışdı. Bir sıra qəzalarda müsəlmanlar əleyhinə fitnəkar hərəkətlərdə hərbi hissələr də iştirak edirdilər. Xüsusən Lənkəran, Cavad qəzalarının rus kəndlərində silahlı dəstələrin yaradılması bu qəzaların müsəlman əhalisi arasında ciddi narahatlıq yaratmışdı. Lakin regionda əsas real təhlükə İrəvan quberniyasında, Bakı şəhərində və Yelizavetpol quberniyasının əksər qəzalarında erməni əhalisinin sürətlə silahlanması və erməni nizami silahlı dəstələrin yaradılması idi. Rusiyanın Sovet hökuməti də öz növbəsində erməni silahlı qüvvələrinin yaradılması məqsədilə bir sıra addımlar atmışdı. Erməni dəstələrinə hər cür silah-sursat, maliyyə yardımı və s. yardımlar göstərilirdi[28]. Hərbi cəhətdən üstünlük qazanan ermənilər artıq 1917-ci ilin sonlarından başlayaraq İrəvan quberniyasında etnik təmizləmələrə başlamışdılar. 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Bakıda və Azərbaycanın digər bölgələrində dinc müsəlman əhalinin soyqırımı törədilmiş, İrəvan quberniyasının ərazisini azərbaycanlılardan təmizləmək üçün onlara qarşı bir sıra cəza əməliyyatları keçirilmişdi. Yerli azərbaycanlılarla müqayisədə kifayət qədər hərbi üstünlüyə malik olan ermənilər, 1917-ci ilin sonlarından başlayaraq Cənubi Qafqazın etnik mənzərəsini zor gücünə öz xeyirlərinə dəyişdirmək üçün fəal hərəkətlərə keçdilər. Ermənilər hətta sayca azlıq təşkil etdikləri ərazilərdə - Yelizavetpol, Ərəş, Nuxa qəzalarında da dinc oturmur, silahlı dəstələr yaradaraq müsəlmanları vahimədə saxlamağa çalışırdılar. Hətta Ərəş və Nuxa qəzalarında ermənilərin bir çox mütəşəkkil hərbi dəstələri yaradılmağa başlanmışdı.[29] Lakin Bakı şəhəri, hətta Yelizavetpol quberniyasının digər əraziləri (Zəngəzur, Cavanşir, Yelizavetpol və Qazax qəzaları) ilə müqayisədə quberniyanın şimal və şimal-şərq hissəsində – Nuxa və Ərəş qəzalarında, Zaqatala dairəsində erməni əhalisinin azlığı, bölgənin

[28] Микаелян В.А., Закарян А.А. Поручик Колмаков о деятельности Андраника в 1918 г. // Журнал Вестник общественных наук Академии Наук Армении. Ереван: № 8, 1988, с.62; Нифталиев И.В. Геноцид азербайджанцев в Иреванской губернии, с.14-16

[29] İsmayılov, K.N. Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə / K. İsmayılov. - Bakı: Turxan, - 2019. - 152 s., s.23

erməni hərəkatının mərkəzlərindən (Bakı və Tiflisdən) uzaqda yerləşməsi, burada mütəşəkkil antitürk hərəkatının formalaşmasına imkan vermirdi. Bolşevizmin və Sovet hakimiyyətinin forpostuna çevrilmiş Bakıdan fərqli olaraq Yelizavetpol quberniyasında hakimiyyət milli qüvvələrin əlində idi. Təhlükənin yaxınlaşdığını görən milli qüvvələr quberniyanın müxtəlif yerlərində özünümüdafiə dəstələri yaratmağa başladılar. Lakin azərbaycanlıların yaratdıqları özünümüdafiə dəstələri bir çox amillər, o cümlədən mütəşəkkillik, hərbi döyüş təcrübəsi, silah-sursatla təminat baxımından ermənilərdən dəfələrlə geri qalırdı. Azərbaycanlıların öz təhlükəsizliklərini qorumaq üçün milli hərbi hissələrini yaratmasına təkcə rəsmi dövlət strukturları deyil, həm də şovinist milli partiyalar, eləcə də bolşeviklər qısqanclıqla yanaşırdılar. Halbuki həmin vaxt onların gözü qarşısında erməni əhalinin silahlanma prosesi baş verirdi. Hələ 1917-ci ilin oktyabrında Qafqaz cəbhəsinin komandanlığı erməni və gürcü korpuslarının yaradılması haqqında əmr versə də əmrdə müsəlman hərbi hissəsinin yaradılmasını müxtəlif bəhanələrlə yubadırdı. Yalnız Azərbaycan liderlərinin təkidli müraciətindən sonra müsəlman korpusunun yaradılmasına prinsipcə razılıq verildi. Lakin azərbaycanlıların silah sursat əldə etmək cəhdləri, o cümlədən Gəncədəki 219-cu alayın milliləşdirilməsi cəhdi ermənilərin ciddi müqaviməti ilə üzləşmişdi. Cəbhəni tərk edərək Rusiyaya qayıdan başıpozuq rus əsgər və zabitlərin qanunsuz hərəkətlərindən ən çox əziyyət çəkən də regionun dinc müsəlman əhalisi oldu. V.Stankeviç etiraf edir ki, qəzəblənmiş və dağılmış rus ordusu cəbhədən qayıdarkən əsasən müsəlman əhalini qarət edirdi.[30] V.Stankeviç öz əsərində həmin dövrdə 200 müsəlman kəndinin dağıdıldığını göstərirdi. Cənubi Qafqaz hakimiyyət orqanlarının qərarı ilə 1918-ci ilin yanvarında Azərbaycan milli qüvvələrinin eşelonlarla bölgəni tərk edən rus qoşunlarını tərksilah etmək cəhdi silahlı toqquşmalarla gətirib çıxardı Gəncə Milli Komitəsinin tərk-silah məsələsini dinc yolla həll etmək cəhdləri də bir nəticə verməmişdi. Nəticədə yanvarın 9-12-də

[30]. Станкевич В.Б. Судьба народов России, с.245

Şamxor stansiyasında baş vermiş toqquşmalarda hər iki tərəfdən ölənlər və yaralananlar olmuşdu. Sonralar Şamxor hadisələri və bu hadisələrdə insan tələfatı haqqında manipulyasiyalar başlamış, və bu indiyə qədər də davam edir. Şamxor hadisələrində həlak olanların sayı ilə bağlı indiyədək tarixi ədəbiyyatda müxtəlif rəqəmlər səsləndirilir[31]. Yanvar hadisələrinin mahiyyətinin saxtalaşdırılması istiqamətində ilk addım da Bakı Sovetinin lideri S.Şaumyan tərəfindən atılmışdı.[32] Bununla da o bir qədər sonra Bakıda və digər ərazilərdə onun rəhbərliyi altında həyata keçirilmiş soyqırımlarına bir növ ideoloji zəmin hazırlayaraq, həyasızcasına yanvar hadisələrini Azərbaycan milli qüvvələrinin "erməni-müsəlman qırğınına hazırlığı" kimi qələmə verməyə çalışmışdır. Sonralar Şaumyanın bu qiymətləndirilməsi rəsmi Sovet tarixşünaslığı üçün əsas ideoloji istinad nöqtəsi oldu.. Müasir rus və erməni müəllifləri də istisnasız olaraq yanvar hadisələrində yalnız azərbaycanlıları günahlandırmağa çalışırlar. Bu müəlliflər həmin ayda Tiflis-Bakı dəmir yolu boyu baş vermiş hadisələri həmin dövrdə regionda cərəyan etmiş hadisələrin kontekstindən çıxararaq, bunu azərbaycanlıların inqilab əhval-ruhiyyəli rus əsgərlərinə qarşı vəhşilik hərəkətləri kimi qələmə verməyə can atırlar.[33]

Yelizavetpol quberniyasında siyasi-hərbi vəziyyətin mürəkkəbləşməsindən istifadə edən erməni siyasi dairələri quberniya ərazisində yaşayan erməni əhalisinin təhlükəsizliyini təmin etmək bəhanəsi ilə bir sıra təxribatçı hərəkətlərə əl atmışdılar. Bu təxribatlar arasında ermənilərdən ibarət "Şəki batolyonu"nun Şəki və Ərəş qəzaları ərazisindəki vəhşilikləri xüsusi diqqət cəlb edir[34].

1917-ci ilin sonlarından başlayaraq Zəngəzur və Şuşa qəzalarında da siyasi vəziyyət gərginləşməyə başlamışdı. Erməni Hərbi Şurasının göstərişi ilə Erməni korpusu ilə yanaşı Cənubi

---

[31] Гасанлы Дж.П. Русская революция и Азербайджан: трудный путь к независимости,70-71; Муханов В.М. Кавказ в революционную пору, с.47

[32] Şaumyan S.G. Seçilmiş əsərləri: 2 clddə. II cild. Bakı: "Azərnəşr, " 1978, 487 s., s.203, 211-212

33 Муханов, В.М. Кавказ в революционную пору..., с.32

[34] İsmayılov, K.N. Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə, s.24-34

Qafqazın müxtəlif yerlərində, o cümlədən Yelizavetpol, Şuşa, Zəngəzur qəzalarında hərbi bölmələr formalaşdırılmağa başlanılmışdı. 1918-ci ilin əvvəllərində Tiflisdə podpolkovnik Melik – Şahnazarovun başçılığı altında "Şuşa" alayı yaradılmış və Zəngəzura göndərilmişdi. Qəzada hərbi, siyasi, maddi üstünlük qazanmış ermənilər Cənubi Qafqazın digər ərazilərində olduğu kimi Qarabağda da azərbaycanlılara qarşı zorakılıq hərəkətlərini genişləndirirək, öz təcavüzkar niyyətlərini gerçəkləşdirməyə başladılar. Terror və zorakılıqlardan istifadə edən erməni hərbi dəstələri təkcə 1917-ci ildə Zəngəzur qəzasında 109, Qarabağda isə 157 kəndi dağıtmışdılar.[35] Bakıda hakimiyyəti ələ keçirmiş bolşevik-daşnak qüvvələrin müsəlman əhaliyə qarşı soyqırımı, daha sonra isə Gəncə istiqamətində hücum əməliyyatlarına başlamaları Qarabağda və Zəngəzurda fəaliyyət göstərən erməni çetelərini xeyli ruhlandırmışdı. Erməni terroruna məruz qalan bölgə müsəlmanları daim təhdid və ölüm təhlükəsi altında yaşayırdılar.

Ermənilər Naxçıvanda da öz fitnəkarlıq fəaliyyətlərini genişləndirmişdilər. 1917-ci ilin sonlarından başlayaraq qəzanın ermənilər yaşayan kəndlərində silahlı dəstələr yaradılmış, onların iştirakı ilə bölgənin etnik mənzərəsini zor gücünə dəyişdirmək üçün fəal hərəkətlərə başlanılmışdı. Təkcə 1918-ci ilin fevral-mart ayları ərzində Naxçıvan ərazisində 30-a yaxın kənd məhv edilmişdi.[36] Ermənilərin artıq müharibəyə hazırlaşdıqlarını görən Naxçıvan Müsəlman Komitəsi azərbaycanlıları imkan daxilində silahlandırmağa və səfərbər etməyə çalışırdı.[37] 1918-ci il fevralın 3-də Naxçıvanın 3 min nəfərdən ibarət könüllü dəstələri Noraşen və Şahtaxtı stansiyaları arasında erməni əsgərlərdən ibarət 25-ci eşelonu tərk-silah etməyə nail olmuşdular[38]. Naxçıvanda erməni silahlı

---

[35] Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.54

[36] Галоян Г.А. Великий Октябрь и борьба трудящихся Армении за победу Советской власти, с.150

[37] Əliyev M.B. Qanlı günlərimiz: 1918-1920. Naxçıvan. Bakı: "Azərnəşr", 1993, 142 s., s.10

[38] На участке Эривань-Джульфа // Возрождение. - 1918, 7 февраля. - с.2.

dəstələrinin azğınlıqları sonrakı aylarda da davam etmiş, nəticədə bölgədə milli münasibətlər xeyli kəskinləşmişdi. Türk qoşunları tərəfindən Naxçıvan bölgəsi nəzarət alındıqdan sonra asayiş bərpa edilsə də, Andranikin Naxçıvana hücumu ilə vəziyyət yenidən pisləşmişdi.

Oktyabr çevrilişi Lənkəran qəzasında da yeni siyasi situasiyanın yaranmasına gətirib çıxardı. 1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində burada müxtəlif siyasi qüvvələrin nəzarəti altında olan silahlı dəstələr fəaliyyət göstərirdi. Bölgənin rus kəndlərində yaradılmış dəstələri və buradakı keçmiş sərhəd dəstəsi ilə yerli əhali arasında münasibətlərin kəskinləşməsi qəzada milli zəmində toqquşmalara gətirib çıxarmışdı. Eyni vəziyyət qonşu Cavad qəzasında da mövcud idi. Bolşeviklər mühüm strateji bölgə hesab etdikləri Quba qəzasını nəzarətə götürmək planlarından əl çəkmirdilər. Lakin qəzanın etno-sosial tərkibinin fərqliliyi, burada rus və erməni əhalisinin azlığı, antiazərbaycan qüvvələrin kifayət qədər gücə və nüfuza malik olmamaları bolşeviklərin bu qəzada uğur qazanmalarına imkan vermirdi.

1918-ci ilin əvvəllərində Azərbaycanda de-fakto ikihakimiyyətlilik davam edirdi. Yelizavetpol quberniyasında Gəncə Müsəlman Milli Şurası Zəngəzur qəzası istisna olmaqla faktiki olaraq mərkəzi hakimiyyət funksiyalarını yerinə yetirirdi, Bakıda isə Bakı Sovetinin hakimiyyəti bərqərar olmuşdu. Belə şəraitdə Azərbaycan milli hərəkatının qarşısında duran əsas vəzifə Bakı şəhəri və bütövlükdə Bakı quberniyasını da nəzarətə almaqdan ibarət idi. Lakin Azərbaycanın siyasi mərkəzini - Bakı şəhərini yadelli qüvvələrdən azad etmək üçün ilk addım uğursuz nəticələnmiş, sovetin silahlı dəstələri Şamaxı və Göyçay ətrafında baş vermiş döyüşlərdə Cənubi Qafqazın qoşunlarının və milli qüvvələrin irəliləməsinin qarşısını almışdılar. Buna baxmayaraq Bakı şəhəri və qəzası, eləcə də Zəngəzur və İrəvan bölgələri istisna olmaqla Şimali Azərbaycanın əksər bölgələri milli qüvvələrin nəzarəti altında qalmaqda idi. Bu isə bütün Cənubi Qafqazı əl keçirməyə can atan Rusiyanın bolşevik hakimiyyətinin və onun Bakıdakı təmsilçisi roluna iddia edən Bakı Sovetinin planlarına ciddi təhlükə yaradırdı.

Belə şəraitdə Bakı bolşevikləri bütün antiazərbaycan qüvvələri, xüsusən erməni-daşnak qüvvələri səfərbər edərək Azərbaycanın milli hərəkatını və onun aparıcı qüvvəsi olan Müsavat partiyasını məhv etmək üçün 1918-ci ilin mart ayının sonu – aprel ayının əvvəllərində kütləvi qırğınlar törətdilər. Bakı şəhərində azərbaycanlıların soyqırımını törədən bolşevik-daşnak qüvvələri öz hakimiyyətlərini Azərbaycanın bölgələrinə də yaymaq niyyəti ilə fəal hərəkətə başladılar. Şamaxı, Quba, Lənkəran, Cavad, Göyçay qəzalarında daşnak-bolşevik qüvvələrinin törətdikləri əməllər bütöv xalqın məhv edilməsinə yönəlmiş əsil genosid hadisəsi idi. Cənubi Qafqazın hakimiyyət sistemində yaranmış böhrandan istifadə edən bolşevik-daşnak Bakı Soveti Bakı quberniyasında öz məqsədlərinə nail olan bolşevik-daşnak qüvvələri Azərbaycan milli hərəkatını məhv etmək, bütün Cənubi Qafqazda hakimiyyəti ələ keçirmək üçün Gəncəyə, sonra isə Tiflisə hücum planı hazırlamış və həyata keçirməyə başlamışlar. Bu zaman onlar əsas ümidlərini Sovet Rusiyası ilə yanaşı, Gəncə quberniyası ərazisində yaşayan ermənilərin üsyanı ilə bağlayırdılar. Bunu Bakı soveti liderlərinin (S.Şaumyan, Q.Korqanov) Moskvaya məktubları da təsdiq edir.[39] Seymin bolşevik daşnak hücumlarının qarşısını almaqda gücsüzlüyü Azərbaycan milli hərəkatının liderlərini yeganə xilas yolu kimi Türkiyən müraciət etməyə vadar edirdi.

Dissertasiyanın ikinci fəsli "**Azərbaycan bölgələri milli dövlət quruculuğu dövründə**" adlanır və 1918-ci ilin may-dekabr ayları ərzindəki hadisələri əhatə edir. Üç paraqrafdan ibarət fəslin 1-ci paraqrafı - "**Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizəsi**" milli Azərbaycan dövlətinin elan olunmasından sonra Cümhuriyyət hökumətinin dövlətin ərazi bütövlüyünün təmin edilməsi, ölkənin bütün ərazisində öz suverenliyinin bərqərar edilməsi uğrunda həyata keçirdiyi tədbirlərin təhlilinə həsr edilmişdir. Paraqrafda QİO və Azərbaycan

[39] Исмаилов К.Н. Военный организатор геноцида азербайджанцев – Григорий Николаевич Корганов (Корганян) // Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи. Баку: ИПО Турхан, 2013, 272 с., с.93-125, с.110-111

könüllülərinin ölkənin ərazi bütövlüyünün təmin edilməsi istiqamətində fəaliyyəti təhlil edilirsə qeyd olunar ki, Türkiyənin digər cəbhələrdə hərbi vəziyyətinin pisləşməsi Azərbaycana əlavə qüvvələr gətirilməsini çətinləşdirdiyindən QİO-nun şəxsi heyətinin formalaşdırılmasında əsas mənbə Azərbaycan əhalisi idi. Yerli əhalidən hərbi hissələrin təşkili iki əsasda könüllülük və hərbi-səfərbərlik əsasında həyata keçirilirdi. Obyektiv və subyektiv çətinliklərə baxmayaraq qısa müddət ərzində QİO sıralarına xeyli azərbaycanlı gənc səfərbər olunmuşdu. Bir sıra türk tarixçiləri qısa müddət ərzində QİO-a 10-12 minə yaxın Azərbaycan könüllüsünün qatıldığını göstərir.[40] M. Süleymanov V Qafqaz firqəsinin sayının 7.733 nəfərdən ibarət olduğunu göstərərək Azərbaycan milli qüvvələrinin 4 minə yaxın olduğunu qeyd edir.[41] Ölkədə çağırış sistemini formalaşdırmaq üçün Azərbaycan Əxzi-əsgər idarəsi onun qəzalarda şöbələri təşkil edilmişdi.[42] Yerlərdə həmçinin milli alaylar yaradılmış, QİO-nun ərzaq, geyim və digər zəruri vasitələrlə təchizatı qəzaların əhalisinin üzərinə düşmüşdü.

Gəncəyə doğru irəliləyən bolşevik-daşnak dəstələri ələ keçirdikləri Azərbaycan kəndlərində əsl soyqırımı hərəkətləri edir, qarət və soyğunçuluqla məşğul olurdular. Yaxınlıqda yerləşən silahlı erməni kəndliləri də onlarla əlbir hərəkət edirdilər. Bunu bolşevik liderlərin özləri də təsdiq edirdilər.[43]

Sovet qoşunlarının hücumunun qarşısını almaq üçün Azərbaycan hökuməti və QİO komandanlığı ciddi hərbi-təşkilati işlər görmüş, Gəncə şəhərində, Nuxa, Ərəş, Göyçay qəzalarında erməni silahlı dəstələri tərk-silah edilmişdi. Bu tədbir arxa cəbhənin

---

[40] Kurat A. Türkiye ve Rusya, s.531; Allen W.E.D., Muratof P. Kafkas Harekatı. 1828-1921 Türk-Kafkas sınırındakı harplerin tarihi, s.445

[41] Süleymanov M.S. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi: I cild, s.351-352

[42] Азербайджанская Демократическая Республика (1918-1920 гг.): Законодательные акты (Сборник документов), с.209-210

[43] Шаумян С.С. Бакинская Коммуна. Баку: Аз.Гиз. 1927, 118 с., с.29-30; Из истории гражданской войны в СССР. 1918-1922 гг. т.1, Москва: Наука, 1957, с.554

təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadı

Cəbhədə vəziyyətin tamamilə Azərbaycan-türk qoşunlarının xeyrinə dəyişməsinə təsir göstərmiş əsas amillərdən biri də döyüş əməliyyatlarının getdiyi ərazilərdə yaşayan azərbaycanlı əhalinin QİO-na hər cür hərbi, iqtisadi, mənəvi dəstək göstərməsi oldu. QİO-an qarşı aparılan əməliyyatlarda, o cümlədən Bakının azad edilməsində QİO-nun nizami bölmələri ilə yanaşı Azərbaycanın müxtəlif bölgələrindən toplanmış könüllü dəstələr də fəal rol oynamışdılar. Bunu həmin əməliyyatların iştirakçıları olmuş türk zabitləri, o cümlədən Nuri paşa, Rüştü də öz xatirələrində qeyd etmişlər.[44]

Bakı Sovetinin hərbi qüvvələrinə qarşı mübarizə dövründə Qarabağ bölgəsində vəziyyət mürəkkəb olaraq qalırdı. Azərbaycan hökumətinin və QİO-nun əsas diqqətinin Bakının azad edilməsinə yönəlməsindən istifadə edən erməni millətçi dairələri Şuşa, Zəngəzur və Cavanşir qəzalarında silahlı dəstələr yaradaraq etnik təmizləmələr yolu ilə Qarabağın Azərbaycandan qoparılmasına çalışırdılar. Ermənilər Əsgəran keçidini ələ keçirərək Qarabağın dağlıq hissəsində yaşayan əhalinin düzən Qarabağla bütün əlaqələrini kəsməyə nail olmuşdular. Olduqca ağır şəraitdə yaşayan Qarabağ azərbaycanlıları ermənilərin təcavüzündən özlərini qorumaq üçün müəyyən tədbirlər görmüş, Şuşada və digər yaşayış məntəqələrində könüllü müdafiə dəstələri yaratmışdılar.[45] Lakin bu qeyri-nizami dəstələr genişlənən erməni təcavüzünün qarşısını almaqda aciz idilər. Buna görə də Bakı hərəkatı başa çatdırıldıqdan sonra Qarabağa hərbi hissələr göndərilmiş, bölgədə Azərbaycan hakimiyyətinin hüquqları təsbit edilmiş, müvəqqəti də olsa sabitlik təmin olunmuşdu. Buna baxmayaraq erməni kəndlərində silahlı dəstələrin öz mövcudluqlarını qoruyub saxlamaları, onların yerli türk əhaliyə qarşı terror və zorakılıqlar həyata keçirmələri bölgədə milli münasibətlərə gərginləşməsinə gətirib çıxarırdı. Əslində həmin dövrdə Qarabağdakı

[44] Süleymanov M.S. Nuri paşa, s.128; Rüştü E.K. Büyük harpte Bakü yollarında 5. Kafkas piyada firkası, s.113

[45] Положение Карабаха в смутные дни (продолжение) // Азербайджан. - 1918, 23 октября. - с.2.

erməni dəstələrini tərk-silah etmək mümkün olmamış, əksinə, kənardan alınmış yardım sayəsində onlar öz qüvvələrini tam bərpa etmişdilər. Mövcud tarixi şəraitdə Qarabağa göndərilə biləcək əlavə qüvvələr Azərbaycanda yox idi. Ermənilərə isə Ermənistandan əlavə qüvvə və yardım gəlməkdə idi. Osmanlı dövlətinin I Dünya müharibəsində məğlubiyyəti Qarabağdakı hərbi-siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi, Azərbaycan hökumətinə bu bölgədə öz suverenliyini təmin etməyə imkan vermədi. Yaranmış geosiyasi şərait həmçinin 1918-ci il ərzində Lənkəran bölgəsində də Azərbaycan Respublikasının suverenliyini təmin etməyə imkan vermədi. Nəticədə 1919-cu ilin avqustuna qədər Lənkəran qəzası yadelli qüvvələrin hakimiyyəti altında qaldı.

İkinci fəslin "**Bölgələrdə milli dövlət quruculuğu prosesinin başlanması"** adlanan ikinci yarımfəsli 1918-ci ilin ikinci yarısında bölgələrdə ictimai-siyasi vəziyyətin təhlilinə həsr edilmişdir. Qeyd olunur ki, Cümhuriyyətin qurulmasından sonra Azərbaycanda ictimai-siyasi vəziyyətə regionda cərəyan edən hərbi-siyasi proseslər birbaşa təsir etdiyindən bölgələrdə də siyasi proseslər fərqli şəkildə təzahür edirdi. Əgər Gəncə quberniyasında siyasi vəziyyətə bilavasitə AC hökumətinin həyata keçirdiyi siyasət və QİO komandanlığının hərəkətləri bilavasitə təsir göstərirdisə, Bakı quberniyasının qəzalarında (Göyçay qəzası istisna olmaqla) siyasi proseslər əksinə, Bakı Sovetinin XKS-nin fəaliyyətindən qaynaqlanırdı. Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində isə siyasi şəraitə təsir göstərən əsas amil, heç şübhəsiz, bu bölgələrə Ermənistanın hərbi təcavüzü, orada erməni separatizminin genişlənməsi idi. Həm Gəncə quberniyasında, həm Bakı quberniyasında, həm də Naxçıvan və Zəngəzur qəzalarında siyasi proseslərin təhlili burada idarəçilikdə vahid meyarların olmadığını göstərir. İyun böhranından sonra yaranmış siyasi şəraiti və idarəçiliyi klassik formada "ikihakimiyyətlilik" kimi səciyyələndirmək olar. İkihakimiyyətlilik həm də qəza və kəndlərin idarə olunmasında özünü göstərirdi. F.X. Xoyski Nuru Paşaya müraciətində də Azərbaycan qəzalarında ikihakimiyyətlilik müşahidə olunduğunu, "son zamanlar Osmanlı imperiyasının hərbi qulluqçularının

Azərbaycanın daxili idarəetmə işlərinə qarışması və Azərbaycan hökumət orqanları ilə tamamilə hesablaşmaması" hallarının getdikcə artdığını onun diqqətinə yetirmişdi. [46] Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Bakının düşmənlərdən azad edilməsi zəruriliyini dərk edən Azərbaycan hökuməti ilk vaxtlar Türk qoşun komandanlığının onun səlahiyyətlərini mənimsəmək cəhdlərinə müəyyən qədər göz yumsa da, Bakı azad edildikdən sonra da müdaxilə siyasətinin davam etməsinə qarşı hökumət artıq sərt mövqe bildirməyə məcbur olmuşdu. Belə şəraitdə hələ Gəncədə olarkən Azərbaycan hökuməti öz səlahiyyətlərini idrar etmək üçün müəyyən qərarlar qəbul etməli oldu. İdarəetmənin milliləşdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilməyə başlanıldı. Lakin hökumət inzibati bölgü sahəsində islahatların aparılacağını, köhnə idarəçilik qaydalarının ləğv ediləcəyini bəyan etsə də, nə 1918-ci ildə, nə də sonrakı illərdə inzibati idarə etmə sistemində hər hansı dəyişiklərə gedilmədi, əksinə, çarizmdən qalma bürokratik iyerarxiya sistemi (qubernatorluq - qəza rəisliyi – pristavlıq) yenidən bərpa edildi. Bir sıra hallarda yerlərdə inzibati idarəçilikdə Türkiyədə mövcud olan qaydalar və formalar tətbiq edilirdi. Bununla belə inqilabi əhval-ruhiyyəni nəzərə alan hökumət idarəçilikdə müəyyən demokratik prinsiplərə əl atmağa məcbur idi. Hələ Gəncədə fəaliyyət göstərərkən hökumət bir sıra şəhərlərdə özünüidarə orqanlarının fəaliyyətinin bərpa edilməsi haqqında qərar qəbul etmişdi. İyulun 30-da hökumətin Azərbaycanda mövcud şəhər özünüidarələrinin fəaliyyətinin bərpa edilməsi ilə bağlı Daxili İşlər nazirinə göstərişi qəbul edildi.[47]

Hökumət əksəriyyətinin kəndlilər təşkil etdiyi əhalinin ağır olan vəziyyətini qismən yüngülləşdirmək üçün müəyyən addımlar atmağa başlamışdı. Hökumət və yerli hakimiyyət qarşısında duran əsas vəzifələrdən biri də bölgələrdə təhlükəli vəziyyət almış cinayətkarlıq, quldurluq və digər neqativ halların qarşısının alınması, asayişin təmin edilməsi və bununla da yeni yaradılmış dövlətin

---

[46] Azərbaycan tarixi: 7 cilddə. V cild, s.276

[47] Постановления правительства // Азербайджан. - 1918, 25 сентября. - с.1.

hakimiyyət strukturlarına inamın bərpa edilməsi idi. Azərbaycan hökuməti cinayətkarlıqla mübarizənin gücləndirilməsi məqsədilə müəyyən addımlar atmışdı. Siyasi-ictimai vəziyyətin sabitləşməsi, hakimiyyət strukturlarının öz fəaliyyətini bərpa etməsi qəzalarda yığılıb qalmış sosial-iqtisadi problemlərin həlli üçün müəyyən addımlar atmağa şərait yaratdı. Azərbaycan hökuməti Gəncədə olarkən bu quberniyada və Bakı quberniyasının işğaldan azad edilmiş ərazilərində maarif işinin yenidən qurulması ilə bağlı da bir sıra addımlar atmışdı. Zaqafqaziya müəllimlər seminariyasının müsəlman şöbəsi Tiflisdən Qazax şəhərinə köçürülmüş, maarif işinin təşkili və milliləşdirilməsi, kadr hazırlığı ilə bağlı digər qərarlar qəbul edilmişdi.

Cümhuriyyət hökumətinin bölgələrdə yeni inzibati-siyasi gerçəkliyin formalaşması istiqamətində atdığı addımlar sırasında Zaqatala dairəsi ilə bağlı məsələ xüsusi yer tutur. Bölgənin Azərbaycana mənsubluğunun təsbit edilməsində yerli əhalinin və müsəlman milli şurasının iradəsi də mühüm amil oldu[48].

Azərbaycan hökuməti Lənkəran qəzasında və Cavad qəzasının cənub hissəsində də öz suverenliyini təmin etmək üçün müəyyən addımla atsa da 1918-ci ilin sonlarında geosiyasi vəziyyətin pisləşməsi Lənkəran qəzasında nəzarəti bərpa edilməsi vəzifəsini bir müddət təxirə salmalı oldu.

Bakı şəhəri azad edildikdən sonra quberniyada və qəzalarda hakimiyyət strukturlarını yenidən formalaşdırılmasına başlanıldı. Lakin bu bir sıra hallarda ikihakimiyyətliliyin yaranmasına gətirib çıxarırdı. Çünki bir tərəfdən türk komandanlığı qəza və şəhərlərə komendantlar təyin edirdisə, eyni zamanda Azərbaycan Daxili İşlər

[48]Доклад комиссии по изучению положения в Закатальском округе (Баку: август 1918 г. // ARDA, Fond № 100, siyahı № 2, iş № 233, v. 93-98; Протокол заседания Закатальского Мусульманского Национального Совета. Приговор о присоединении округа к Азербайджанской Республике. (Закаталы: 26 июня 1918 г.) // ARDA, Fond № 970, siyahı № 1, iş № 18, v.28-29; İsmayılov, K.N. Zaqatala-Balakən bölgəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə // Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, - 2007. №30, - s.43-49.

naziri də hökumətin adından qəzalara rəislər, sahələrə isə pristavlar təyin edirdi. Bu isə müəyyən ziddiyyətlərə gətirib çıxarırdı. Bakı quberniyasına daxil olan Şamaxı, Salyan, Quba şəhərlərində özünüidarə orqanlarının - bələdiyyələrin (dumaların) fəaliyyəti bərpa edildi.

Birinci Dünya müharibəsinin nəticələri, Britaniya qoşunlarının daxil olması Azərbaycanın bölgələrində yeni şərait yaratdı. Belə şəraitdə ölkədə demokratik dövlət təsisatlarının formalaşdırılması Cümhuriyyət hökuməti qarşısında əsas vəzifələrdən biri kimi durdu. Parlament yaradılarkən partiya təmsilçiliyi və milli təmsilçiliklə yanaşı inzibati-ərazi təmsilçiliyi prinsipi də əsas götürülmüşdü. Qanunda Bakı quberniyası, Gəncə quberniyası, Zaqatala dairəsi bütövlüklə, İrəvan və Tiflis quberniyalarının isə bir hissəsinin Azərbaycan ərazisini təşkil etdiyi göstərilir, vilayətlərin parlamentdə təmsilçilik proporsiyası müəyyənləşdirilirdi. Qanunda Azərbaycanın ayrı-ayrı şəhər və qəzalarının parlamentdə təmsil olunması məsələsi öz əksini tapmışdı.[49] Ali qanunverici orqanda təmsil olunmaları üçün qısa müddət ərzində yerlərdə müvafiq təşkilati işlər görülmüş, seçkilər keçirilmişdi. Lakin vəziyyətin mürəkkəbliyi ucbatından bəzi yerlərdə, o cümlədən Naxçıvanda seçkilər keçirilməmiş, onlar parlamentdə təmsil olunmamışdılar. Bakı şəhər azad edildikdən sonra bölgələrdə siyasi-ictimai vəziyyətin sabitləşməsi, yeni hakimiyyət strukturlarını formalaşdırılması, sosial-iqtisadi problemlərin, mədəni-maarif məsələlərinin həlli istiqamətində müəyyən addımlar atılmışdı. Lakin Birinci Dünya müharibəsi nəticələri həm bütün ölkə ərazisində, həm də bölgələrdə yeni şərait yaratdı.

Fəslin **“Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrində hərbi-siyasi vəziyyətin pisləşməsi”** adlı **3-cü paraqrafında** Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrində yaranmış vəziyyət işıqlandırılır. Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğalının qarşısını almaq üçün Azərbaycan hökumətinin, Türkiyə hərbi rəhbərliyinin və bölgə liderlərinin fəaliyyəti təhlil olunur. Burada fəaliyyət göstərən Müsəlman milli şurası faktik

[49] Азербайджанская Республика: Документы и материалы. 1918-1920 гг., с.75

olaraq diyarın azərbaycanlı əhalisinin siyasi mərkəzinə və hakimiyyət orqanına çevrilmişdi. Şuranın rəhbərliyi altında Naxçıvanın müxtəlif məntəqələrində könüllü dəstələr yaradılmışdı. 1918-ci ilin yayında Andranikin Naxçıvanda həyata keçirdiyi qətliamlar haqqında məlumat verilir, yerli əhalinin ona müqaviməti haqqında faktlar gətirilir Andranikin Naxçıvanda olduğu müddətdə əhalinin tərk-silah edilməsi bəhanəsi ilə Naxçıvan şəhərindən tutmuş Ordubada qədər bütün kəndlərdə qırğınlar törədilmişdi. Andranikin gəlməsindən cürətlənən bölgədəki erməni yaraqlı dəstələri də yenidən fəallaşaraq Andranikin qoşunları ilə birgə müsəlman əhaliyə divan tutulmasında yaxından iştirak edirdilər. Tabe olmaqdan imtina edən Yaycı kəndi ermənilər tərəfindən tamamilə dağıdılaraq yandırıldı. [50] Naxçıvan diyarı Türkiyənin XI Qafqaz Diviziyası tərəfindən azad edildikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etmiş, yerli əhalidən özünümüdafiə dəstələri təşkil etmişdi. Avqustun əvvəllərində Ordubad mahalı da nəzarətə alınmışdı. Naxçıvanın türk hərbi qüvvələrinin əlinə keçməsi ilə bölgə əhalisi müvəqqəti də olsa erməni zülmündən qurtuldu, Azərbaycan hökuməti Naxçıvan bölgəsinə aid öz suveren hüquqlarını bərqərar etmək üçün müəyyən addımlar atmışdı. I Dünya müharibəsinin nəticələrinə görə Cənubi Qafqazdan, o cümlədən Naxçıvandan türk qoşunlarının çıxmasından sonra Ermənistan bu bölgəni ələ keçirmək üçün bir sıra addımlar atmağa başladı. Eyni zamanda Naxçıvanın yerli liderləri də diyarı real işğal təhlükəsindən xilas etmək üçün müəyyən hərbi, siyasi, diplomatik tədbirlər həyata keçirmişdilər.[51] Bu tədbirlərdən ən mühümü 1918-ci il noyabrın 18-də məhəlli səciyyəli dövlət qurumunun - Araz-Türk Hökumətinin (Respublikasının) yaradılası oldu. Türk qoşunları çıxarıldıqdan dərhal sonra Ermənistan hökuməti Naxçıvanı ələ keçirmək üçün

[50] Микаелян В.А., Закарян А.А. Поручик Колмаков о деятельности Андраника в 1918 г. // Журнал Вестник общественных наук Академии Наук Армении. Ереван: № 8, 1988, с.78

[51] Əliyev M.B. Qanlı günlərimiz: 1918-1920, s. 83-84

müəyyən inzibati-hüquqi, hərbi, diplomatik addımlar atdı.[52] Lakin onların hamısı kağız üzərinə qaldı. Ermənistanın müharibə yolu ilə Naxçıvanı ələ keçirmək planları naxçıvanlıların rəşadəti sayəsində baş tutmadı.

1918-ci ilin ikinci yarısında ermənilər Azərbaycanın Zəngəzur bölgəsini əl keçirmək, bölgəni müsəlmanlardan təmizləmək üçün əsil soyqırımı siyasəti həyata keçirdilər. Zəngəzurda türk-müsəlman əhalisinə qarşı soyqırımı quldur Andranikin bölgəyə gəlməsi ilə pik nöqtəyə çatdı. R.Hovannisyan Andranikin hərəkətlərini Zəngəzurun tam erməni torpağına çevrilməsi prosesinin başlanğıcı kimi səciyyələndirir.[53] Andranik 1918-ci il avqustun 3-dən 1919-cu il aprelin 1-ə qədər Zəngəzur bölgəsində olmuşdur.[54] Andranikin Zəngəzura gəlməsi ilə Zəngəzurun qərb və cənub-qərb ərazisi (Gorus, Sisian, Qafan və Mehri) Azərbaycan hökumətinin nəzarətindən çıxmış, faktik olaraq Zəngəzurun iki hissəyə - müsəlman və erməni hissələrinə ayrılması baş vermişdi. Qeyd edək ki, Andranikin dəstəsi ilə yanaşı Zəngəzurda ermənilərin digər hərbi dəstələri də var idi. Andranikin və digər erməni dəstələrinin Zəngəzurda müsəlmanlara qarşı vəhşilikləri haqqında AC hökumətinin yaratdığı FTK-nın sənədlərində, yerli hakimiyyət nümayəndələrinin, ictimai xadimlərin teleqram və məktublarında, dövrü mətbuat səhifələrində çoxsaylı faktlar və dəlillər mövcuddur. Azərbaycanlılara qarşı vəhşiliklər sonrakı aylarda da davam etmişdir. Zəngəzur mahalının I polis sahəsinin bütün müsəlman kəndləri, II sahənin kəndlərinin əksər hissəsi, III, IV, V sahələrin mühüm hissələri tamamilə məhv edilmişdi. 50.000 nəfərdən müsəlman öz yurd-yuvalarından qaçqın düşərək 4-cü sahədə, Naxçıvan, Ordubad və Cəbrayıl qəzalarında yerləşmişdi. FTK-nın sənədlərində dağıdılmış və məhv edilmiş 115 kəndin adı göstərilmişdi[55]. N.Mixaylovun məruzəsində və FTK-nın

---

[52] Вестник архивов Армении, 1993, №1-2, с.58

[53] Hovannisian R.G. The Republic of Armenia, volum I, The First Year, 1918-1919

[54] Асоян Т.М. Территориальные проблемы Республики Армении и британская политика (1918-1920 гг.), с.117

[55] Доклад члена ЧСК Михайлова по обследованию им мусульманских селений Джаванширского, Джабраилского, Зангезурского и Шушинского

materiallarında erməni vandalizmi şahid ifadələri ilə, konkret faktlarla öz təsdiqini tapmışdı.[56] FTK-nın sənədlərində öz əksini tapmış faktlar bir qayda olaraq yalnız 1918-ci ilin yayında və payızında qəzada baş vermiş faciələrin bir qismini əks etdirir.

Türk qoşunlarının Azərbaycanı tərk etməsi ilə Zəngəzurda və Qarabağda azərbaycanlılara qarşı erməni vəhşiliklərini yeni, daha faciəvi fazası başlandı. Türk qoşunları Şuşanı tərk etdikdən sonra Andranik hücuma keçərək Qarabağ erməniləri ilə birləşməyi və bununla bütün Zəngəzur-Qarabağ bölgəsini ələ keçirməyi düşünürdü. Bu məqsədlə də Andranik 1918-ci il noyabrın 16-da Şuşa istiqamətində hücuma keçmiş Zabux dərəsindəki 12 müsəlman kəndini ələ keçirmişdi. Andranikin hücumları ilə bütün Qarabağın işğal olunması təhlükəsi yarandı. Real hərbi qüvvəyə malik olmayan Azərbaycan hökuməti Qarabağda vəziyyəti yalnız siyasi-diplomatik vasitələrlə çözə bilərdi. Elə bu məqsədlə də hökumət ingilis qoşunlarının komandanı Tomsona müraciət edərək ondan Andranikə təsir göstərməyi tələb etmişdi.[57] Lakin erməni dəstələrinin Zəngəzurda yerli müsəlmanlara qarşı zorakılıqları sonrakı aylarda da davam etmişdi. Azərbaycan hökumətinin Zəngəzurda və Qarabağda erməni separatizmi ilə mübarizə istiqamətində tədbirləri bir sıra hallarda səmərəsiz nəticə verirdi. Ermənistan hökuməti isə bundan istifadə edərək Zəngəzurda öz hərbi iştirakını getdikcə artırırdı.

Dissertasiyanın "**Azərbaycan bölgələrinin ictimai-siyasi həyatı**" adlı **III fəsli** 1919-cu ilin əvvəlindən Cümhuriyyətin süqutuna - 1920-ci ilin aprelinə qədərki dövrü əhatə edir. **Fəslin 1-ci paraqrafında** bölgələrdə ictimai-siyasi vəziyyət təhlil olunur. Bu dövrdə mərkəzdə olduğu kimi bölgələrdə də hakimiyyət strukturlarının fəaliyyəti tam bərpa edilmiş, Qarabağ, Zəngəzur, Naxçıvan və Lənkəran bölgələri istisna olmaqla qəzalarda sabitlik və

---

уездов Гянджинской губернии, пострадавших от погромов и других насильственных действий со стороны армян (Баку: 9 мая 1919 г.) // ARDA, Fond № 100, siyahı № 2, iş 791, v. 1-12

[56] İsmayılov K.N. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920), c.18-28

[57] К событиям в Зангезуре // Азербайджан. - 1919, 16 декабря. - с.3.

əmin-amanlıq təmin edilmişdi. Siyasi sabitliyin, asayişin təmin olunması, bölgələrdə hakimiyyət strukturlarının möhkəmləndirilməsi cinayətkarlıqla mübarizənin səmərəliliyinə müsbət təsir göstərmişdi. Bu mübarizənin ən mühüm nəticəsi müxtəlif qəzalarda fəaliyyət göstərən quldur dəstələrinin zərərsizləşdirilməsi idi. Bu baxımdan Gəncə quberniyasının Gəncə, Qazax və Nuxa qəzalarında vəziyyət daha mürəkkəb idi. Kəndlilərin torpaq uğrunda mübarizəsindən istifadə edən bəzi şəxslər öz ətrafına silahlı dəstələr toplayaraq qarət və quldurluqla məşğul olur, yerli hakimiyyət orqanlarına itaətsizlik göstərir, hətta dövlət idarələrinə hücum etməkdən belə çəkinmirdilər. Müxtəlif siyasi qüvvələr, xüsusən bolşeviklər hakimiyyət əleyhinə çıxan bu dəstələrdən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırdılar. Silahlı dəstə başçılarının təhriki ilə bir sıra qəzalarda hətta silahlı toqquşmalara gətirib çıxarmış hakimiyyət orqanlarına qarşı çıxışlar baş vermişdi. Hakimiyyət orqanları bu dəstələrlə mübarizə aparmaq üçün ordu hissələrindən istifadə etməli olmuşdu.

Azərbaycan qəzalarının əhalisi ordu quruculuğu işində yaxından iştirak edirdi. Bir sıra nöqsanlara baxmayaraq bölgələrdə orduya çağırış və səfərbərlik işində xeyli irəliləyişlər baş vermişdi. Qəzalarda fərariliyin qarşısını almaq üçün tədbirlər görülürdü.

Azərbaycan hökuməti və parlamenti yerlərdə inzibati-siyasi islahatların aparılması üçün müəyyən tədbirlər müəyyənləşdirmişdi. Bu tədbirlər sırasında qəza mərkəzləri və şəhərlərdə özünüidarə orqanlarının fəaliyyətinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Hələ 1918-ci ilin sonlarında bəzi şəhərlərdə özünüidarələrin – bələdiyyələrin fəaliyyəti yenidən bərpa edilmişdi. Azərbaycan hökuməti yerli bələdiyyələrə dəstək üçün onlara maliyyə yardımı göstərilməsi ilə bağlı bir neçə qərar qəbul etmişdi. Buna baxmayaraq, bütün ölkə ərazisində inzibati, siyasi islahatları həyata keçirmək mümkün olmamış, yalnız ayrı-ayrı şəhərlərdə bələdiyyələrin tərkibi yeniləşdirilmişdi. DİN-də fəaliyyəti dayandırılmış kənd özünüidarə orqanlarının səlahiyyətlərinin tam bərpa edilməsi ilə bağlı qanun layihəsi hazırlanmışdı.[58]

---

[58] Адрес-календарь Азербайджанской Республики на 1920 год, с.199

1919-cu ilin avqustunda ingilis qoşunlarının Azərbaycanı tərk etməsi ilə ölkədə demokratik islahatların daha əzmlə həyata keçirilməsinə başlanıldı. 1919-cu ilin sonu – 1920-ci illərin əvvəllərində Azərbaycanın bir sıra şəhərlərində (Gəncə, Nuxa, Quba və s.) özünüidarə orqanlarına – bələdiyyələrə seçkilər keçirildi. Bələdiyyə seçkilərinin ən mühüm cəhəti Azərbaycan tarixində ilk dəfə olaraq bu seçkilərin çoxpartiyalılıq və seçki senzi olmadan keçirilməsi oldu. Nəticədə şəhər bələdiyyələrində əhalinin ən müxtəlif sosial təbəqələrinin nümayəndələri təmsil olunmuşdular.

Regionlarda əhalinin siyasi fəallığının artmasının mühüm amillərindən biri də siyasi partiyaların və ictimai təşkilatların bölgələrdə əhali arasında iş aparmaları ilə bağlı idi. Azərbaycanın ən aparıcı partiyası olan Müsavat partiyasının bütün bölgələrdə şöbələri fəaliyyət göstərirdi. Azərbaycanda yaradılmış demokratik siyasi şəraitdən istifadə edən digər partiyalar, xüsusən solyönümlü partiyalar da bölgələrə nüfuz etməyə çalışırdılar.

1919-cu ilin ortalarında Lənkəran qəzasında Azərbaycanın suverenliyinin bərqərar edilməsi ölkənin ictimai-siyasi həyatında baş vermiş ən mühüm hadisələrdən biri oldu. Həmin ilin avqustunda Azərbaycan Ordusunun keçirdiyi "Lənkəran əməliyyatı" nəticəsində Lənkəran qəzası və Cavad qəzasının cənub əraziləri tamamilə Azərbaycan hakimiyyətinin nəzarəti altına keçdi. Bununla da Azərbaycanın İranla cənub sərhədlərinə çıxışı da təmin olundu. Azərbaycanın Lənkəran-Muğan bölgəsində suveren hüquqlarının bərpa edilməsində nizami qoşun hissələri ilə yanaşı yerli vətənpərvərlərdən təşkil edilmiş və yadellilərə qarşı əzmlə mübarizə aparmış dəstələr də mühüm rol oynadılar.[59] Cənub bölgəsində nəzarət təmin edildikdən sona burada yerli hakimiyyət orqanlarının fəaliyyəti bərpa edildi.

Bütövlükdə, qəzaların inzibati idarəçiliyində köklü islahatlar aparılması nəzərdə tutulsa da Cümhuriyyət dövründə bu sahədə hər hansı dəyişiklik həyata keçirmək mümkün olmamışdı.

---

[59] İsmayılov K.N. 1917-1920-ci illərdə Lənkəran-Muğan bölgəsində ictimai-siyasi proseslər // Tarix və gerçəklik, 2013, s.64-82, s.77

**III fəslin "Bölgələrdə Ermənistanın təcavüzünün və erməni separatizminin genişlənməsi"** adlanan **2-ci paraqrafında** Azərbaycanın Naxçıvan, Zəngəzur, Qarabağ, Qazax bölgələrində erməni təcavüzkarlığının genişlənməsi ilə əlaqədar bu bölgələrdə siyasi və hərbi vəziyyət təhlili olunur.

1919-cu ilin ilk günündən başlayaraq Ermənistan hökuməti yaranmış geosiyasi vəziyyəti özü üçün əlverişli hesab edərək Naxçıvanın ilhaqı istiqamətində bir sıra hərbi və inzibati-siyasi səciyyəli addımlar atdı. Ermənilər bu zaman Cənubi Qafqazda öz mövqelərini möhkəmlətmək istəyən ingilislərin himayəsinə böyük ümidlər bəsləyirdilər. Lakin Naxçıvanın yerli liderlərinin və Azərbaycan hökumətinin qətiyyətli mövqeyi ermənilərin bu ümidlərini puça çıxardı. Naxçıvanlı nümayəndələrin Bakıda Azərbaycan hökumətinin rəhbərləri, ingilis komandanlığı ilə görüşləri, Naxçıvanın özündə fəaliyyət göstərən ingilis missiyası ilə sıx təmasları Naxçıvanlıların Azərbaycanla bir yerdə olmaq iradələrini bir daha təsdiq etdi. Eyni zamanda AC də bütün maneələrə baxmayaraq, Naxçıvan bölgəsi üzərində öz suverenliyini təmin etmək üçün bir sıra hərbi-siyasi, diplomatik tədbirlər həyata keçirmiş, burada xüsusi hərbi-inzibati idarəetmə sistemi - Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaradılmışdı. Naxçıvan general-qubernatorluğu müəyyən obyektiv və subyektiv səbəblərdən tam fəaliyyət göstərməsə də, bu strukturun yaradılması Azərbaycan hökumətinin bölgə ilə bağlı prinsipial mövqe tutduğunu göstərirdi.

Eyni zamanda Ermənistan hökuməti də Naxçıvan və Şərur qəzalarında inzibati idarəçiliyin təşkili, burada 50 min erməni qaçqının yerləşdirilməsi ilə bağlı bir neçə qərar qəbul etmişdi.[60] 1919-cu ilin mayında ingilislərin dəstəyindən istifadə edən ermənilər Naxçıvanı zor gücünə ələ keçirmək üçün bölgəyə qoşun yeridərək burada general-qubernatorluq yaratdılar. Erməni idarəçiliyinin ilk günlərindən müsəlman əhalisinə qarşı özbaşınalıqlar və qanunsuzluqlar törədilirdi. Ermənilər silahlı dəstələri əhalidən silahları yığmaq bəhanəsi ilə kəndlərə hücum edir, bölgənin nüfuzlu

[60] Зограбян Э.А. Шарур-Нахичевань в 1918-1919 гг., с. 208-209

şəxslərini həbs edir, kütləvi axtarışlar aparırdılar. Azərbaycan hökuməti bu zorakılıqlara son qoyulması tələblərinə Ermənistan hökuməti onun daxili işlərinə qarışmaq kimi qiymətləndirdi. Lakin ermənilərin Naxçıvanı tam işğal etmək cəhdləri qısa zamanda naxçıvanlıların qətiyyəti sayəsində iflasa uğradı. Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsl müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 minə çatırdı.[61] Ermənilərin bölgədəki ağalığına son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr 1919-cu il iyul ayının son ongünlüyündə baş verdi.[62] Ordubaddan Şərura qədər bütün Naxçıvan ərazisində, eləcə də İrəvan quberniyasının müsəlmanlar yaşayan ərazilərində, İğdırda Ermənistan qoşunlarına sarsıdıcı zərbələr endirildi. Ermənistan hökuməti müsəlmanların hücumlarını dayandırmaq üçün hətta Paris konfransına belə müraciət etməli oldu.[63] Nəticədə, Naxçıvan bölgəsində ingilislərin himayəçiliyi altında silah gücünə yaradılmış erməni idarəçiliyi iflasa uğradı.

Sonrakı aylarda ermənilərin Antantanın Cənubi Qafqazda ali komissarı təyin edilmiş V.Haskelin əli ilə Naxçıvana yenidən yiyələnmək cəhdləri də baş tutmadı. Onun Naxçıvanda neytral zonanın və general-qubernatorluğun yaradılması yolu ilə bölgənin Azərbaycandan qoparılması planları naxçıvanlılar tərəfindən qətiyyətlə rədd edildi.[64] Bölgənin yenidən itirilməsi təhlükəsi Naxçıvan rəhbərliyini müdafiə səciyyəli bir sıra əlavə tədbirlər görməyə vadar etdi. Naxçıvanda Amerika general-qubernatorluğu yaratmaq yolu ilə bölgəni ələ keçirmək planlarının boşa çıxdığını

---

[61] Hacıyev A.N. Qars və Araz-Türk respublikaları tarixindən. Bakı: "Azərnəşr", 1994, 124 s., s.71-75

[62] Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.180

[63] Зограбян Э.А. Шарур-Нахичевань в 1918-1919 гг., с.300-301

[64] Меморандум мусульман Сурмалинского, Миллистанского, Ведибасарского, Шарурского, Нахичеванского, Ордубадского районов, представленный Верховному Комиссару Гаскелю (9 сентября 1919 г.) // ARPİİSA, Fond № 277, siyahı № 2, iş 58, v. 1-5; Доклад члена землячества мусульман Эриванской губернии Султанова МИД АР (Баку: Сентябрь 1919 г.) // ARPİİSA, Fond № 277, siyahı № 2, iş 58, v. 128-129

Ermənistan Baş Naziri A.Hatisyan etiraf etməli olmuşdu. O Haskel planının boşa çıxmasının əsas səbəbi kimi, Naxçıvanın türk əhalisinin gizli müqavimətini təşkil etmiş Azərbaycan hökumətinin fəaliyyətini göstərmişdi.[65] Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində ermənilərin bölgəni bitərəf zonaya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

Fəsildə 1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində Naxçıvan və Ordubad bölgələrində hərbi siyasi vəziyyət geniş təhlil edilir, Zəngəzur qəzasında baş verən hadisələr buradakı vəziyyətə mənfi təsir göstərdiyi qeyd olunur[66]. 1920-ci ilin yazında ermənilərin Naxçıvanı ələ keçirmək cəhdləri, erməni təcavüzünün qarşısının alınmasında M.Kamal hökumətinin hərbi-siyasi dəstəyi ilə bağlı məsələlər işıqlandırılır.

Paraqrafda Ermənistan hökumətinin Zəngəzurda hərbi iştirakını möhkəmləndirmək üçün atdığı hərbi-siyasi xarakterli addımlar, o cümlədən 21 yanvar 1919-cu il tarixli Zəngəzur və Qarabağın müvəqqəti idarə edilməsi haqqında qərarı təhlil edilir, ermənilərin Qarabağ və Zəngəzur bölgələrinə artmaqda olan iddialarının qarşısının alınması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər işıqlandırılır. Həmin tədbirlər sırasında Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzaları hüdudlarında ayrıca general-qubernatorluğun təsis edilməsi və nüfuzlu dövlət xadimi Xosrov bəy Sultanovun general-qubernator təyin edilməsi haqında 15 yanvar (29 yanvar) 1919-cu il tarixli qərarın əhəmiyyəti açıqlanır. Hökumətin qərarı ilə bölgədəki bütün inzibati idarəetmə strukturları, vəzifəli şəxslər general-qubernatora tabe etdirilmişdi. Azərbaycan hökumətinin qətiyyətli tələbi ilə Andranik Zəngəzurdan çıxarılsa da, Ermənistan hökuməti bu bölgəni ilhaq etmək planlarından vaz keçmədi. Erməni

---

[65]. Вестник архивов Армении, 1993, №1-2, с.187-188

[66] İsmayılov, K.N. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920) / K. İsmayılov. - Bakı: Turxan NPB, - 2019. - 200 s., s.94-109.

qoşunlarının həyata keçirdiyi əməliyyatlar nəticəsində qəzanın dinc türk-müsəlman əhalisinin kütləvi öldürülməsi və deportasiyası ilə müşayiət olunurdu. 1919-cu ilin sentyabr ayından sonra Zəngəzurun azərbaycanlılar yaşayan 110 kəndi məhv edilmişdi[67]. Bütövlükdə Türkiyə hərbi hissələrinin bölgəni tərk etməsindən sonra Zəngəzur mahalında 120 müsəlman kəndi dağıdılmış, bu kəndlərdən 70-ə yaxınının əhalisi tamamilə məhv edilmiş, qalanlarını isə labüd ölüm gözləyirdi. [68] Azərbaycan hökumətinin Zəngəzurda ermənilərin təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün atdığı hərbi-siyasi səciyyəli addımlar təəssüf ki bir nəticə vermədi. 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında bağlanmış müvəqqəti sazişin Azərbaycanın milli maraqlarına ciddi ziyan vuran nəticələrə gətirib çıxardığı göstərilir Qəzanın Oxçu dərəsi və Gığı dərəsi kəndlərinin, xüsusən Oxçu, Şabadin, Pirdavdan, Atqız, Quşçular kəndlərinə qarşı ermənilərin törətdikləri vəhşiliklər haqqında ətraflı bəhs olunur. [69] Erməni müəlliflər Njdenin "qəhrəmanlığından" bəhs edərkən yazırlar ki, 1919-cu ilin noyabrın 15-də Njdenin dəstələri Oxçu dərəsinin türk kəndlərini ələ keçirmiş, bir qədər sonra – dekabrın 1-8 arası Gığı dərəsində 33 kəndi dağıtmış və nəticədə Gorus – Qafan yolu ermənilərin nəzarətinə keçmişdi[70].

Paraqrafda 1920-ci ilin əvvəllərində Zəngəzur və Şuşa qəzalarında yaranmış mürəkkəb vəziyyət şərh olunur, həmin ilin martında ermənilərin düşünülmüş plan əsasında müxtəlif cəbhələrdə - Böyük Vedidə, Naxçıvanda, Ordubadda, Qarabağda və Zəngəzurda geniş miqyaslı hərbi əməliyyatları və onların nəticələri işıqlandırılır. Martın sonlarında əsas hərbi proseslər Qarabağ ərazisində cərəyan

---

[67] İsmayılov, K.N. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920) / K. İsmayılov. - Bakı: Turxan NPB, - 2019. - 200 s., s.94-109.

[68] В Зангезуре // Азербайджан. - 1919, 17 октября. – s.3.

[69] Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu. 3 cilddə, II cild, 1-ci kitab, Gəncə quberniyasında soyqırımı. 1918-1920-ci illər, s.124; İsmayılov K.N. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920), s.217-218

[70] Гарегин, Нжде. Короткая биография и летопись жизни, http://nashasreda.ru/garegin-nzhde/

etsə də Zəngəzur qəzasında da həlledici hadisələr baş verirdi. Martın 23-də ermənilər zəbt etdikləri Zəngəzur qəzasının müsəlman kəndlərindən Cəbrayıl qəzasına da hücum etdilər və bir neçə kəndi ələ keçirərək yandırdılar. Azərbaycan hökumətinin ölkənin insani, hərbi, maddi-maliyyə imkanlarını səfərbər etməsi sayəsində aprelin əvvəllərində cəbhədə vəziyyəti qismən dəyişdirmək mümkün olsa da, sovet işğalına qədər burada vəziyyət ağır olaraq qalırdı. Erməni separatçı dəstələrinin fəaliyyəti təkcə Naxçıvan, Zəngəzur və Şuşa qəzaları ilə məhdudlaşmayaraq, Gəncə quberniyasının Cəbrayıl, Cavanşir, Qazax, Gəncə qəzalarını da əhatə edirdi. Beləliklə, 1919-cu ilin əvvəllərindən 1920-ci ilin mayına qədərki dövr ərzində Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində, mövcud siyasi şəraiti səciyyələndirən əsas amil Ermənistanın bu bölgələri ələ keçirmək üçün hərbi müdaxiləsi və buradakı yerli ermənilərin təcavüzkar separatçı hərəkətlərini dəstəkləməsi oldu. Ermənistan hökuməti müttəfiqlərin fəal dəstəyi ilə Naxçıvanda öz idarəçiliyini qurmağa cəhd etsə də, yerli əhalinin inadlı hərbi müqaviməti, Azərbaycan hökumətinin sərt siyasi-diplomatik mövqeyi və yeni Türkiyə hökumətinin hərbi dəstəyi ermənilərin Naxçıvanla bağlı niyyətlərinin həyata keçməsinə mane oldu. Qarabağda (Şuşa qəzasında) Azərbaycanın hərbi-siyasi rəhbərliyinin atdığı addımlar, o cümlədən general-qubernatorluq institutunun yaradılması burada vəziyyətin qismən sabitləşməsinə təsir göstərsə də, separatçı erməni qüvvələrini tərk-silah etmə mümkün olmadı. Çox təəssüf ki, bu dövrdə Azərbaycan hökumətinin həyata keçirdiyi hərbi və diplomatik xarakterli tədbirlər ermənilərin Zəngəzuru işğal etmək cəhdlərinin qarşısını ala bilmədi. Bu isə sonda Qarabağda vəziyyətin yenidən gərginləşməsi, Qərbi Zəngəzurun işğalı, bölgənin müsəlman əhalisinin kütləvi qırğını və deportasiyası, Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsi ilə nəticələndi.

Dissertasiyanın IV fəsli **“Bölgələrin sosial-iqtisadi və mədəni həyatı”** adlanır və üç paraqrafdan ibarətdir**. “Bölgələrdə iqtisadi və sosial vəziyyət”** adlanan **1-ci paraqrafda** regionlarda iqtisadi proseslər, əhalinin sosial vəziyyəti və digər məsələlər araşdırılır. Paraqrafda Cümhuriyyət dövründə Azərbaycan iqtisadiyyatının

neftdən sonra ikinci bel sütununu təşkil edən kənd təsərrüfatının vəziyyətini əks etdirən statistik göstəricilər təhlil olunur və qeyd olunur ki, iqtisadiyyatın bu sahəsi ciddi böhran mərhələsini yaşayırdı. Aqrar məsələnin həll edilməməsi kənddə sosial mübarizənin, kəndli hərəkatının inkişafının əsas səbəbi idi. Torpaq uğrunda mübarizənin genişlənməsinin əsas səbəblərindən biri də hökumətin torpaq məsələsində qeyri-müəyyən və mühafizəkar mövqe tutması idi. Aqrar məsələsinin həlli ilə bağlı hökumət və parlament dairələrində müxtəlif variantlar mövcud olsa da siyasi partiyalar arasında bu məsələyə münasibətdə kəskin ziddiyyətlər və digər amillər Cümhuriyyətin sonuna qədər torpaq məsələsinin həlli istiqamətində əməli addımlar atmağa imkan vermədi. Aqrar sahədə böhranlı vəziyyət Cümhuriyyətin süqutunun birbaşa səbəbi olmasa da torpaq məsələsinin öz həllini tapmaması ölkənin sosial-iqtisadi və siyasi həyatındakı digər böhtan hallarının katalizatoru olmaqda davam edirdi.

Azərbaycan hökuməti bölgələrin inkişafında nəqliyyatın mühüm rolunu aydın dərk edərək dəmir yolu və şose yolları şəbəkəsinin genişləndirilməsinə strateji məsələ kimi baxırdı. Bir sıra qəzaların, xüsusən Zəngəzur və Cəbrayıl qəzalarının Bakı şəhərindən uzaqda yerləşməsi, burada infrastrukturun (dəmir yolu, şose yolu, poçt-teleqraf və s.) inkişaf etməməsi, adı çəkilən bölgələrin iqtisadi geriliyinin əsas səbəblərindən idi. Həmin bölgələrin iqtisadi inkişafı baxımından Bakı-Culfa dəmir yolu xəttinin inşası mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan hökuməti dəmir yolunun inşası məqsədi ilə xüsusi qanun layihəsi hazırlayaraq parlamentə təqdim etmiş və müvafiq qanun 1919-cu il mayın 6-da qəbul edilmişdi.[71] Dəmir yolunun inşası Azərbaycan bölgələri ilə mərkəz arasında əlaqələrin güclənməsinə xidmət etməklə yanaşı, Naxçıvan və Ordubad bölgələri ilə birbaşa nəqliyyat əlaqəsi yaratmağa, bölgələrin idarəsinin yaxşılaşmasına, ölkənin siyasi bütövlüyünün möhkəmlənməsinə gətirib çıxaracaqdı. Yerli əhəmiyyəti ilə yanaşı, Bakı-Culfa dəmir

[71] Азербайджанская Демократическая Республика (1918-1920 гг.): Законодательные акты (Сборник документов), с.248

yolunun tikintisi mühüm geosiyasi əhəmiyyət kəsb edirdi. Bu yolun Azərbaycan üçün əhəmiyyətini ermənilər də yaxşı başa düşürdülər. Buna görə də yolun tikintisinin qarşısını almaq üçün həm diplomatik, həm də hərbi vasitələrdən istifadə edirdilər. İqtisadi əhəmiyyətini nəzərə alaraq hökumət bir sıra şose yollarının təmiri üçün də vəsait ayırmışdı. Bölgələrdə maliyyə-bank sisteminin, poçt-teleqraf müəssisələrinin fəaliyyətinin bərpa edilməsi də mühüm məsələlərdən idi. Paraqrafda bu sahədə görülən işlər haqqında geniş məlumat verilir, bölgələrdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün atılan addımlar təhlil olunur.

Ümumilikdə qeyd olunan dövrdə bölgələrin ictimai-siyasi həyatında müəyyən müsbət dəyişikliklər baş versə də sosial-iqtisadi sahədə vəziyyət mürəkkəb olaraq qalırdı. Xüsusən əhalinin mütləq əksəriyyətini təşkil edən kəndlilərin vəziyyəti getdikcə ağırlaşır, bu da onların hakimiyyətdən narazılığını artırırdı.

Fəslin **2-ci paraqrafı "Azərbaycan bölgələrində qaçqınlar məsələsi"** adlanır. Qeyd olunur ki, AC hökumətinin həllinə çalışdığı ən vacib məsələlərdən biri qaçqın və köçkünlərin yerləşdirilməsi, onların minimum həyat ehtiyaclarının ödənilməsi idi. Yarandığı ilk gündən başlayaraq Cümhuriyyət hökuməti qaçqınlıq problemi ilə yaxından məşğul olmalı olmuş, problemin həlli istiqamətində siyasi-diplomatik addımlar atmış, külli miqdarda maliyyə vəsaiti xərcləmişdi. Qaçqınların mütləq əksəriyyəti Azərbaycanın qəzalarında yerləşdiyindən qaçqınlıq problemi həm də bölgələrin və onların əhalisinin ən kəskin sosial problemlərindən birini təşkil edirdi. Bu dövrdə qaçqınlar əsasən üç kateqoriyaya bölünürdülər: 1) ermənilərin İrəvan quberniyası və Zəngəzur qəzası ərazisində həyata keçirdikləri soyqırımı və deportasiya siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinə pənah gətirmiş müsəlman qaçqınlar; 2) 1918-ci ildə Bakı Sovetinin bolşevik-daşnak rejiminin törətdiyi etnik genosiddən xilas olmaq üçün öz yurd-yuvalarını tərk edərək başqa qəzalarda məskunlaşmış qaçqın və köçkünlər; 3) AC-nin yaranmasından əvvəl öz yerlərini tərk etmiş və Cümhuriyyət yarandıqdan sonra əvvəlki yaşayış yerlərinə geri qayıdan erməni, rus və digər millətlərdən olan qaçqınlar. Paraqrafda hər üç kateqoriyadan

olan qaçqınlarla bağlı statistik məlumatlar verilmiş, onların yerləşdirilməsi, ehtiyaclarının təmin edilməsi ilə bağlı hakimiyyət orqanlarının fəaliyyəti işıqlandırılmışdır. Xüsusən ermənilərin soyqırımı və deportasiya siyasətinin nəticəsi olaraq İrəvan quberniyasından və Zəngəzurdan qaçqın düşərək Azərbaycan hökumətinin himayəsinə sığınmış yurddaşların yerləşdirilməsi ilə bağlı məsələlər burada geniş əks olunmuşdur. Qaçqınların problemlərini həll etmək məqsədilə 1919-cu il iyunun 23-də "Qaçqınların və köçkünlərin vəziyyətinin öyrənilməsi və onların daimi yaşadıqları yerlərə qaytarılması üzrə" mərkəzi komissiya, yerlərdə isə quberniya və qəza mərkəzlərində isə yerli komissiyalar yaradılmışdı. Azərbaycan hökuməti öz ərazisindəki qaçqınlarla yanaşı Ermənistan ərazisində qalmış müsəlman qaçqınlara da qayğı göstərirdi. Hökumət onların vəziyyətini yaxşılaşdırmaq üçün bütün maddi, siyasi-diplomatik imkanları səfərbər etmişdi.[72] Bu məqsədlə İrəvanda AR Himayədarlıq Nazirliyinin xüsusi müvəkkili vəzifəsi təsis edilmişdi T.Makiniskinin məlumatına görə Ermənistan Respublikasını ərazisində 500 min müsəlmandan cəmi 200.000 qalmışdı.[73] M. Avdeyevə görə, daşnakların hakimiyyəti dövründə ümumilikdə İrəvan quberniyasında 250 min əhalisi olan 300 müsəlman kəndi boşaldılmışdı.[74]

Cümhuriyyət hökuməti Azərbaycandakı əvvəlki yaşayış yerlərinə geri qayıdan erməni, rus və digər millətlərdən olan əhali qrupunun problemlərinin həlli də məşğul olurdu. Müxtəlif erməni mərkəzlərinin Azərbaycanda guya ermənilərin sıxışdırılması ilə bağlı yalanlarına baxmayaraq, vaxtilə Azərbaycan ərazisini tərk etmiş ermənilərin kütləvi şəkildə öz əvvəlki yaşayış yerlərinə qayıtmaları

---

[72]. Исмаилов К.Н. Обустройство беженцев-азербайджанцев из Кавказской Армении в Азербайджанской Демократической Республике: 1918-1920 годы // Ирс-Наследие, 2011, №6 (54), с. 44-50, с.44-48

[73] Доклад Уполномоченного Министра Призрения АР в Армении Т.Макинского о положении мусульман в Армении (Эривань: 11 февраля 1929 г.) // ARDA, Fond № 84, siyahı № 1, iş № 9, v.60-62

[74] Авдеев М.Н. Миграция населения Закавказья за время революции //. Жизнь национальностей, Москва: 1922, 22 марта

müşahidə olunurdu. Bununla bağlı dissertasiyada konkret rəqəmlər verilmişdir. Qaçqınların digər qrupunu Azərbaycanda ərazisində məskunlaşdırılmış ruslar və müxtəlif xristian təriqətlərinə mənsub əhali qrupu təşkil edirdi ki, onlar 1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində regionda cərəyan etmiş mürəkkəb proseslərin təsiri altında yaşadıqları yerləri tərk etmişdilər. Cənub bölgəsində Azərbaycanın suveren hüquqları təmin edildikdən sonra hökumət bu qrup qaçqınların (təxminən 30 minə yaxın idi) problemlərinin həlli ilə məşğul olmağa başlamışdı.

Fəslin **3-cü paraqrafında bölgələrdə maarifin və mədəniyyətin inkişafı** ilə bağlı məsələlər nəzərdən keçirilir. Qeyd olunur ki, siyasi və iqtisadi böhran şəraitində, ciddi xarici təhdidlər altında yaşamasına baxmayaraq Cümhuriyyət hökuməti bölgələrdə mədəni –maarif məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Bu sahədə AC-ə keçmişdən ağır miras qalmışdı. Xüsusən bölgələrdə maarifin və mədəniyyətin vəziyyəti olduqca acınacaqlı idi. Mövcud çətinliklərə baxmayaraq, hökumət, yerli hakimiyyət orqanları, şəhər bələdiyyələri, ziyalılar maarif işini canlandırmaq üçün bütün imkanlardan istifadə edirdilər. Yerlərdə məktəb sisteminin yenidən qurulmasında 1918-ci ilin dekabrın 13-28-də Bakıda keçirilmiş xalq məktəbləri müfəttişlərinin qurultayı mühüm rol oynadı. Qurultayda ölkədə maarifin və məktəb həyatının mühüm məsələləri, təhsil və tədris sahəsindəki problemlər müzakirə olunmuş, milli təhsil sisteminin qurulması ilə bağlı hökumətə bir sıra təkliflər irəli sürülmüşdü[75]. Bu təkliflərin əksəriyyəti bölgələrdə, xüsusən kənd yerlərində məktəb işinin inkişaf etdirilməsinə yönəlmişdi.

Mövcud tədris müəssisələrinin əksəriyyətinin Bakı şəhərində yerləşdiyini nəzərə alaraq hökumət müxtəlif qəzalarda ibtidai, orta təhsil müəssisələrinin, müəllim seminariyalarının, pedaqoji kursların açılması barədə qərarlar qəbul etmişdi. Bakı istisna olmaqla bölgələrdə yerləşən bütün orta məktəb müəssisələri milliləşdirilmişdi. Bölgələrdə yaşayan ziyalılar və müəllimlər 1919-

---

[75] Назарли, А. Э. Народное образование в Азербайджанской Республике (1918-1920), с.54-55.

cu ilin avqustunda keçirilmiş Azərbaycan türk müəllimlərinin qurultayında fəal iştirak etmişdilər. Qurultay bölgələrdə yeni məktəblərin açılması təşəbbüsü ilə çıxış edərək, müəllimləri xalqın savadlanması və maariflənməsi işində yaxından iştirak etməyə çağırdı[76]. Yerlərdə müəllimlər, ziyalılar yaşlı əhalinin savadsızlığının aradan qaldırılmasında da yaxından iştirak edirdilər. Atılan addımlar sayəsində 1919-cu ilin ortalarından başlayaraq bölgələrdə bir sıra məktəblərin fəaliyyətini bərpa etmək mümkün olmuş, yeni ali ibtidai məktəblər açılmışdı.

Cümhuriyyət dövründə mədəni-maarif sahəsində atılan mütərəqqi addımlar sırasında qadın təhsilinin inkişafına və qadınların ictimai fəallığının artırılmasına yönəlik addımlar mühüm yer tuturdu. Bölgələrdə ictimai-siyasi əziyyətin, mədəni-maarif işinin canlanmasının ən mühüm təzahürlərindən biri qadınların ictimai fəallığının artması, onların yaşadıqları bölgələrin təhsil, mədəniyyət, xeyriyyə işlərinə getdikcə daha geniş şəkildə cəlb olunmaları idi. Qadınlar bölgələrdə keçirilən mədəni tədbirlərdə yaxından iştirak etməyə başlayırdılar. Bölgələrdə incəsənətin və teatrın inkişafında "Müsəlman aktyorları cəmiyyəti" və "Hacıbəyov qardaşları" truppasının xidmətləri böyük idi. Bu cəmiyyətlər tez-tez qəzalara səfərlərə çıxır, teatr tamaşaları göstərirdilər. Gəncədə və Şuşada "Hacıbəyov qardaşları" truppasının şöbəsi açılmışdı. Şuşada, Şamaxıda, Lənkəranda, Salyanda həvəskar dram qrupları yaradılmışdı.

Təhsilin milliləşdirilməsi, mədəni-maarif müəssisələrinin, məktəblərin, pedaqoji kursların, savad kurslarının təşkili, mədəni tədbirlərin keçirilməsi, qızların və qadınların təhsilə, mədəni-ictimai həyata cəlb edilməsi, mətbuat orqanlarını açılması və s. addımlar Bakı şəhəri ilə yanaşı, bölgələrdə də atılırdı və bütün bu addımlar qısa müddət ərzində öz müsbət nəticələrini vermişdi[77].

---

[76] К реформе средней школы // Азербайджан. - 1919, 9 сентября. - с.3

[77] İsmayılov, K.N. Azərbaycan Xalq Cümhuriyyəti və milli-mədəni inkişaf // Ankara: Bizim külliye dergisi, - 2018. №77, - s.74-86.

“**Nəticə**” hissəsində dissertasiya işinə yekun vurulur və qeyd edilir ki, dövrün tarixi hadisə və prosesləri coğrafi baxımdan ölkənin siyasi mərkəzi olan Bakı şəhəri ilə məhdudlaşmamış, Azərbaycanın bütün bölgələrinə bu və ya digər dərəcədə öz təsirini göstərmişdir. Eyni zamanda bölgələrdə baş vermiş hadisələr də bütövlükdə Azərbaycan miqyasında əks-səda vermiş, proseslərin axarına müəyyən dərəcədə əks-təsir göstərmişdir. Araşdırılan dövrdə Azərbaycan bölgələri regionda və ölkədə baş verən sosial-siyasi hadisələrin burulğanına düşərək zəngin siyasi, hərbi, iqtisadi, mədəni dəyişiklərin məkanına çevrilmişdilər. Cümhuriyyətin qısa mövcudluğu müddətində bölgələrdə həyata keçirilmiş tədbirlər müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. 1917-1920-ci illərdə Naxçıvanda siyasi vəziyyətə dair (Problemin tarixşünaslıq aspektləri) // “Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri” Beynəlxalq simpoziumun materialları, - Naxçıvan: 9-10 iyun, - 2005, - s.177-187.
2. Zaqatala-Balakən bölgəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə // -Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, - 2007. №30, - s.43-49.
3. Azərbaycan Xalq Cümhuriyyətində müstəqil gömrük xidmətinin formalaşdırılması // -Bakı: Azərbaycan gömrüyü: tarixi, ənənələr və müasirlik, - 2007, - s.136-149.
4. Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi, mədəni həyatında gənclərin iştirakı // -Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun əsərləri, - 2008. №25, - s.78-88.
5. 1918-1920-ci illərdə Şamaxının ictimai-siyasi həyatı //- Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, - 2009. 28-ci cild, - c. 173-180.

6. Gədəbəy bölgəsi 1918-1920-ci illərdə // -Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, - 2009. - 29-ci cild, - c. 103-112
7. Bakının azad edilməsində Azərbaycan xadimlərinin siyasi-diplomatik mübarizəsi // "Azərbaycan dövlətçilik ənənələrinin tarixi" Azərbaycan Cümhuriyyətinin qurulmasının və Bakının azad edilməsinin 90 illik yubileyinə həsr edilmiş beynəlxalq simpozimun materialları, - Bakı:- 2008, - s.9-12.
8. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində suverenliyin təmin edilməsində Qarabağ general-qubernatorluğunun rolu // "Qarabağ: dünən, bu gün, sabah" Qarabağ general qubernatorluğunun 90 illiyinə həsr olunmuş VIII Elmi konfransın materialları, - Bakı: - 2009, - s.136-141.
9. Идеи Кавказской конфедерации во взглядах деятелей АДР // Труды международной научной конференции "Россия и Кавказ: история и современность", – Махачкала: Наука ДНЦ, - 22 октября, - 2009, 2010, - с. 447-450.
10. Сотрудничество Азербайджанской Демократической Республики с дагестанскими народами // Материалы международной научной конференции «Азербайджан – Дагестан: история братских взаимоотношений, современность, перспективы» посвящённой памяти Сеида Курбанова / Труды Института Истории НАН Азербайджана. - Специальный выпуск, - 2010. №33, - с.376-384.
11. Azerbaycanda toprak sorunu ve çözümü yolları (1918-1920) // -Ankara: Büyük Devletler Kıskacında Bağımsız Azərbaycan (1918-1920) İQ.Kultür Sanat Yayıncılıq, - 2010. - s.329-335.
12. Обустройство беженцев-азербайджанцев из Кавказской Армении в АДР. 1918-1920 гг. //-Баку: Ирс-Наследие, - 2011. №6(54), - с. 44-50.
13. Cənub-Qərbi Qafqazın türk-müsəlman əhalisinin öz müqəddəratını təyin etmək uğrunda mübarizəsi //- Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. İctimai elmlər seriyası, - 2011. №1 (37), - s. 30-38.

14. Военный организатор геноцида азербайджанцев – Григорий Николаевич Корганов (Корганян) // К.Исмаилов и др.-Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи, - Баку: ИПО Турхан, - 2013. - с.93-125.
15. Qubadlı - Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı / K.N. İsmayılov [və b.]. – Bakı: Turxan, - 2013, - 425 s.
16. 1917-1920-ci illərdə Lənkəran-Muğan bölgəsində ictimai-siyasi proseslər //- Bakı: Tarix və Gerçəklik, - 2013. - s.64-82.
17. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı. (1918-1920) / K.İsmayılov. – Bakı: Turxan, - 2014. – 248 s.
18. Azərbaycanda cümhuriyyət quruculuğu prosesində Türkiyə-Azərbaycan əlaqələrinin bəzi aspektləri (1918-1920-ci illər) // - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. İctimai elmlər seriyası, - 2014. № 2(58), - s.33-38.
19. Naxçıvanlıların qonşu bölgələrin türk-müsəlman əhalisinə hərbi-siyasi yardımı tarixindən (1918-1920-ci illər) // - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. İctimai elmlər seriyası. Naxçıvan MR-nın 80 illiyinə həsr edilmiş xüsusi buraxılış, - 2014. № 6(62), - s.50-55.
20. Azərbaycanın Zəngəzur və Vedibasar bölgələrinin müdafiəsində naxçıvanlıların rolu (1918-1920-ci illər) // - Naxçıvan: Naxçıvan qədimdən günümüzə qədər. Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu, - Bakı, - 2014. - s.248-258.
21. К вопросу об участии Военно-Революционного совета Кавказской армии в мартовских событиях 1918 г. // К 100-летию начала первой мировой войны: Материалы международной научной конференции «Малоизвестные страницы истории, уроки прошлого и призыв к будущему», - Баку: - 23-24 мая, - 2014, - с.191-210.
22. Azərbaycanın Cəbrayıl qəzasının türk-müsəlman əhalisinə qarşı ermənilərin soyqırımı (1918-1920-ci illər) // "Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920)" mövzusuna həsr olunmuş II beynəlxalq elmi

konfransın materialları, - Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri. Xüsusi buraxılış,- 2015, - 52, 53, 54, 55-ci cildlər, - c. 119-125.

23. Свидетельские показания и воспоминания большевиков как важный источник по геноциду азербайджанцев в Шемахинском уезде в 1918 года // Материалы III международной научной конференции «Геноцид тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии (1914-1920)», - Баку: Труды Института Истории НАН Азербайджана. Специальный выпуск, 2015.- 56, 57, 58 clidlər, - с. 317-324.
24. Azərbaycanın Quba qəzasında ictimai-siyasi proseslər (1917-ci ilin fevralı -1918-ci ilin martı) // -Naxçıvan: Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. İctimai elmlər seriyası, - 2015. № 6(71), - s.45-53.
25. Azerbaycan Devletçiliğinin Oluşumu ve Türkiye Etkeni // - Ankara: Yeni Türkiye dergisi, - 2015. - cild 5, sayı 75, - Temmuz - Aralık 2015, - s. 502-508.
26. 1918-1920 Yıllarında Zengezur kazasında Müslümanlara Karşı Ermeni Cinayetleri //- Ankara: Yeni Türkiye dergisi, - cild 5, sayı 77, Temmuz - Aralık 2015, - s. 178-196.
27. Azerbaycanda Cumhuriyet Kuruculuğu – Türkiye amili // Kuruluşunda 90. Yılına Türkiye Cumhuriyeti Uluslararası sempozyumu, - Eskişehir: Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, Atatürk Araştırma Merkezi Yayınları,- 23-25 ekim, - 2013, -cilt II, Ankara, - 2016, - s.1255-1270.
28. Cümhuriyyət dövründə Azərbaycanın şimal-şərq bölgəsində siyasi vəziyyət (1918-1920-ci illər) // -Bakı: AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası, - 2016. №3, - s.111-116.
29. Cümhuriyyət dövründə Şəki bölgəsində ictimai-siyasi vəziyyət (1918-1920-ci illər) // -Bakı: AMEA-nın xəbərləri. İctimai elmlər seriyası, -2016. №4, - s.33-43.
30. Zəngəzur bölgəsində azərbaycanlıların soyqırımı // K.İsmayılov və baş.-Azərbaycan xalqına qarşı 1918-ci il

soyqırımları, - Bakı: Azərbaycan tarixçiləri İctimai Birliyi, - 2016. - s.115-124.
31. Naxçıvan bölgəsində hərbi-siyasi proseslər (1918-1920-ci illər) //- Bakı: Milli təhlükəsizlik və hərbi elmlər jurnalı, - 2016. cild 2, № 4, - s.45-54.
32. Azərbaycanda sovet hakimiyyətinin ilk illərində Qırmızı Ordunun kütləvi zorakılıq və özbaşınalıqları // -Bakı: Hərbi bilik jurnalı, - 2016. №5(143), - s.11-26.
33. 1918-ci ildə Lənkəran bölgəsində erməni silahlı birləşmələrinin cinayətləri Azərbaycan xalqına qarşı soyqırım siyasətinin tərkib hissəsi kimi // XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq konfransın materialları,- Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, xüsusi buraxılış, - 2017. 64, 65, 66-cı cildlər, - s. 83-94.
34. О важнейших источниках по геноциду азербайджанцев в Шемахинском уезде в 1918 году // "31 Mart Azərbaycanlıların soyqırımı"na həsr olunmuş respublika elmi konfransının materialları, -Bakı: Azərbaycan Hərb tarixi muzeyi, - 2017, - s.119-132.
35. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycançılıq məfkurəsi // -Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və praktika, - 2018. №2 (62), - s.213-234.
36. Об одной провакации армян в 1918 году // "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırım" V Beynəlxalq elmi konfransın materialları. -Bakı: Azərbaycan AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri, xüsusi buraxılış, - 2018. 70, 71, 72-cı nömrələr, - s.269-270.
37. 1918-1920-ci illərdə Azərbaycanda demokratik dövlət quruculuğu təcrübəsindən // "Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi" Beynəlxalq elmi konfransın materialları. -Bakı: Azərbaycan MEA Tarix İnstitutunun elmi əsərləri, xüsusi buraxılış,- 2018. 74, 75, 76-cı clidlər, - s.268-278.

38. Аграрные отношения и земельный вопрос в Азербайджанской Демократической Республике (1918—1920 гг.) // -Москва: Вопросы истории, - 2018. №9, - с.80-91.
39. Azərbaycan Xalq Cümhuriyyəti və milli-mədəni inkişaf // -Ankara: Bizim külliye dergisi, - 2018. №77, - s.74-86.
40. Azerbaycan Halk Cumhuriyeti ve Modern Devlet Kuruculuğu // -Van: Van Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (Uluslararası hakemli dergi, ISSN: 1302-6879), - 2018. Azerbaycan Özel Sayısı, - s. 305-336.
41. Azərbaycan Cümhuriyyətinin gənclər siyasəti //-Bakı: Mədəniyyət.az jurnalı, - 2018. №318, - s.114-117.
42. Azərbaycançılıq məfkurəsinin tarixi kökləri // -Bakı: Lənkəran Dövlət Universitetinin elmi xəbərləri, - 2018. №1, - s.89-100.
43. Azərbaycan Cümhuriyyəti – milli mədəni inkişaf və tolerant birgəyaşayış nümunəsi // -Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, - 2018. № 7, Say 1, - s.188-202.
44. Azərbaycanın Cəbrayıl bölgəsində erməni vəhşilikləri (1918-1920-ci illər) // 31 Mart – tariximizin faciəli səhifəsi, - Bakı. “Elm və təhsil”, - 2019. - s.344-359.
45. Azərbaycanın Zəngəzur bölgəsi 1918-1920-ci illərdə / K. İsmayılov. – Bakı: Turxan NPB, - 2019. - 144 s.
46. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920) / K. İsmayılov. - Bakı: Turxan NPB, - 2019. - 200 s.
47. Партии и парламент в политической системе Азербайджанской Демократической Республики (1918-1920 гг.) / К. Исмаилов. - Баку: Турхан ИПО, 2019, 188 s.
48. Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə / K. İsmayılov. - Bakı: Turxan, - 2019. - 152 s.
49. Participation of the Military-Revolutionary Committee of the Caucasian Army in the March Events of 1918 in Baku // Proceedings of V International Congress of Caucasologists, Ivane Javakhishvili Tbilisi State University Faculty of

Humanities Institute of Caucasology Arnold Chikobava Institute of Linguistics, - Tbilisi: 2019, - p.170-171, 336-337.
50. Azerbaycanın Sovyetleşmesinden Sonra Sovyet Rusya'nın Nahçıvan Bölgesi'ne Yönelik Politikası (Mayıs - Temmuz 1920) // -Ankara: Akademik Tarih ve Düşünce Dergisi, - 2019, cilit 6, sayı 5, - s. 164-188.
51. Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru / K.N. İsmayılov, A.M.Balayev. – Bakı: AZTAR MMC "Maarif"nəşriyyatı, - 2020. – 120 s.
52. Armenian terror aganist historical and cultural monuments of Azerbaijan / K.N. İsmayılov, A.M.Balayev. – Baku: Maarif publishing hous, - 2020. – 120 s.
53. 1920-ci ilin Mart hadisələri azərbaycanlıların soyqırımının növbəti mərhələsidir // Azərbaycan qəzeti, 2020, 31 mart http://www.azerbaijan-news.az/view-185979/1920-ci-ilin-mart-hadiseleri-azerbaycanlilarin-soyqiriminin-novbeti-merhelesidir
54. Şəki (Nuxa) bölgəsi 1917-1920-ci illərdə // Şəki. Ən qədim zamanlardan günümüzədək // -Bakı, "Turxan" NPB, 2020, 708 s. (Kollektiv monoqrafiya, ss.385-424)
55. Армянские зверства на территории Южного Кавказа и позиция азербайджанских политических сил (I половина 1918 года)// "XX əsr Türk-Müsəlmn soyqırımları, Bakının Qafqaz İslam Ordusu tərəfindən qurtuluşundan Qarabağ zəfərinə doğru Azərbaycan-Türkiyə münasibətləri" Bakının erməni-daşnak, bolşevik işğalından azad edilməsinin 103 illiyinə həsr olunmuş II Beynəlxalq Quba Simpoziumunun materialları, Quba, 10-11 sentyabr 2021-ci il, s. 199-210.
56. Azərbaycan Xalq Cümhuriyyəti// Qafqazda ilk respublikalar (1918-1920)// -Bakı, "İdeal-Print" MMC, 2021, 419 s., (Həmmüəllif, N.Maksvellə birgə, ss.13-87.)
57. Cənub-Qərbi Qafqaz Cümhuriyyəti// Qafqazda ilk respublikalar (1918-1920)//-Bakı, "İdeal-Print" MMC, 2021, 419 s. (Kollektiv monoqrafiya, ss.291-320)
58. Azərbaycan düşünce tarihi. Evreler, Oaylar ve Şehsiyetler (19. Yüzyılın ortaları – 20. Yüzyılın başları) 2 clitte. Ankara,

Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, 2021, ISBN (həmmüəlliflərlə birgə)

59. The military organizer of the genocide of Azerbaijanis – Grigori Nikolayevich Korganov (Korganyan)// Genocwide of the Azerbaijani people in 1918: The organizers and executioners, Baku, PPA Turkhan, 2020. (Həmmüəllif, s.95-161)
60. Ideology of "Azerbaijanism": Formation, stages of historical development. Baku, The Agency for State Support to Non-Governmental Organizations of the Republic of Azerbaijan, "Savalan" Historical Researrches Public Union, Maarif nəşriyyatınnı mətbəəəsi, 2022, 153 p. (Həmmüəllif, A.Balayevlə birgə)
61. "Azərbaycançılıq ideologiyası": təşəkkülü, tarixi inkişaf mərhələləri// Bakı, Azərbaycan Respublikasınını Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, ""'Savalan Tarixi Araşdırmalar" İctimai Birliyi, "Maarif" nəşriyyatının mətbəəsi, 2022, 223 s. (Həmmüəllif, A.Balayevlə birgə)
62. Развитие просвещения и культуры в регионах Азербайджана в период Первой Республики (1918-1920 гг.)// Современная научная мысль научный журнал НИИ Истории, Экономики и Права. - М.: НИИ ИЭП, 2023. -№ 2. с.74-85

Dissertasiyanın müdafiəsi ____ ___________2023-cü il tarixində saat _______ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı, H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _____________ 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: **число месяц год**

Kağızın formatı:

Həcm: 95100 işarə

Tiraj: 100 nüsxə